## 500-dən artıq Azərbaycan vətəndaşı Xarkovdan təxliyə edilib



**Ukraynanın Xarkov şəhərində vəziyyət gərgin olaraq qalır.**

Azərbaycanın Xarkovdakı Fəxri konsulluğundan APA-ya verilən xəbərə görə, ötən gün Xarkov şəhərinə atılan raketlərdən biri konsulluq binasına yaxın əraziyə düşüb.

Partlayışın zərbəsindən konsulluq binasının şüşələrinə zərər dəyib. Buna baxmayaraq, konsulluq 24 saatlıq iş rejimində fəaliyyətini davam etdirir. Konsulluq fəaliyyətini ölkəmizin Xarici İşlər Nazirliyinin təlimatı əsasında həyata keçirir.

Xarkov şəhərində yaşayan həmvətənlərimizin evakuasiyası prosessi Xarkov vilayət adminstrasiyası və dəmiryolu idarəsi ilə koordinasiyalı şəkildə davam etdirilir. Gün ərzində 500-dən artıq həmvətənimiz təhlükəsiz bölgələrə evakuasiya edilib.

## İş və istirahət günlərinin yerləri dəyişdirildi



**Nazirlər Kabineti "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" qərar verib.**

Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2022-ci il 7 mart iş günü ilə 5 mart istirahət gününün yerləri dəyişdirilib.

*Xatırladaq ki, 8 mart - Beynəlxalq Qadınlar Günüdür. Beləliklə, 6, 7 və 8 mart tarixləri qeyri-iş günü olacaq.*


№ 41 (5563), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 mart 2022-ci il (cümə)






## Türkiyə danışıqlar prosesinə təsir göstərəcək

### Zelenski: "Ərdoğanın Ukraynaya kömək etdiyi bir çox məsələlər var"

**Ukrayna Prezidenti Volodimir Zelenski Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ukraynaya əhəmiyyətli dəstək verdiyini və müharibəni bitirmək üçün bir çox addımlar atdığını bildirib.**

TASS xəbər verir ki, Zelenski xarici jurnalistlərə Ərdoğanla yaxın münasibətləri olduğunu vurğulayıb.

"Çox yaxşı münasibətlərimiz var. Oradan pilotsuz təyyarələr alınıb və bu, böyük köməkdir. Ərdoğanın Ukraynaya kömək etdiyi bir çox məsələlər var. Mən ona çox minnətdaram. Siyasi səviyyədə o, həm də bir çox addımlar atır ki, Rusiya Prezidenti müharibəni bitirməyin vacibliyini başa düşsün", - Zelenski deyib. (Report)

Zelenski, həmçinin qeyd edib ki, Türkiyə gələcəkdə Ukraynanın təhlükəsizliyinin təminatçılarından birinə çevriləcək və Rusiya ilə danışıqlar prosesinə təsir göstərəcək.

"Dünya liderlərinin çoxunda belə bir imkan yoxdur. Çox adam istəyir, amma az adamda belə bir fürsət var. Ərdoğan çox güclüdür, çox ciddi prezidentdir və bizə kömək edir. Düşünürəm ki, Türkiyə Ukrayna üçün təhlükəsizlik təminatlarını təqdim edən ölkələrdən biri olacaq", - Zelenski əlavə edib.

## Aİ Ukraynaya azı 500 milyon avro humanitar yardım göndərəcək

**Avropa İttifaqı Ukraynaya humanitar yardım məqsədilə öz büdcəsindən azı 500 milyon avro vəsait təqdim edəcək.**

Trend-in məlumatına görə, bunu Avropa Komissiyasının sədri Ursula fon der Lyayen öz "Twitter" səhifəsində yazıb.

"Biz Rumıniyada Ukrayna üçün humanitar hab yaradırıq. Avropadan gələn yardımı Ukrayna sərhədinə yolladığı üçün Rumıniyaya təşəkkürümü bildirirəm" - U.fon der Lyayen yazıb.

# Müvəqqəti atəşkəs elan olundu

### Rusiya və Ukrayna danışıqların ikinci mərhələsində razılığa gəlib



**Dünən Belarusda Ukrayna və Rusiya arasında danışıqların ikinci mərhələsi keçirilib.**

**Bu barədə Ukraynanın Prezident Aparatı rəhbərinin müşaviri Mixail Podolyak Twitter səhifəsində yazıb.**

Gündəmdə olan mövzular dərhal atəşkəs, barışıq, dağıdılmış və ya daim atəşə tutulan kənd və şəhərlərdən mülki əhalinin çıxarılması üçün humanitar dəhlizlərin açılması idi.

Belarusda Ukrayna və Rusiya arasında danışıqların ikinci mərhələsində nümayəndə heyətləri humanitar dəhliz açılması və müvəqqəti atəşkəslə bağlı razılığa gəldilər.

Bu barədə məlumatı jurnalistlərə Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixail Podolyak verib.

(səh.2)

## Motosiklet qəzaları Bakının gününü qara edib

### Nömrə yox, qeydiyyat yox, vəsiqə yox, kim necə istəyir sürür



**Paytaxtda motosiklet qəzalarının sayı artıb. Təkcə ötən gün Kliniki Tibbi Mərkəzə müxtəlif motosiklet qəzalarından bir-birinin ardınca 6 yaralı gətirilib.**

Mərkəzin mətbuat xidmətinin məlumatına görə, gətirilən yaralılardan 3 nəfərin vəziyyəti nisbətən ağır olduğuna görə xəstəxanaya yerləşdirilib, digər 3 nəfər isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Kliniki Tibbi Mərkəzin Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin müdiri Aydın Əlizadənin sözlərinə görə, bu cür qəzalar demək olar ki, hər gün baş verir:

"Gündəlik olaraq bir və ya bir neçə motosiklet qəzasından yaralılar gəlir.

(səh.4)



## Bu şəxslərə müharibə veteranı təqaüdü verilməyəcək

**Şəxs müharibə əlili kimi təqaüd alırsa, ona "Müharibə veteranı" statusuna görə təqaüd verilməyəcək.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat katibi Fazil Talıblı sosial şəbəkə hesabında paylaşım edib. "Çünki müharibə əlillərinə Prezidentin aylıq təqaüdü (I dərəcə üçün 400 manat+ qulluq edən şəxs üçün 80 manat, II dərəcə üçün 350, III dərəcə üçün 300 manat) ödənilir. Qanunvericiliyə əsasən, bir şəxsin həm müharibə əlili, həm müharibə veteranı kimi təqaüd almaq hüququ yarandıqda, hüququ olan iki təqaüd növündən yalnız biri və yüksək məbləğdə olanı verilir", - deyə qeyd edib.

## Yoluxanların sayı azalıb

### 570 nəfər koronavirusa yoluxub, 19 nəfər ölüb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 570 yeni yoluxma faktı qeydə alınıb, 1 784 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 19 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 787 937 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 771 530 nəfər müalicə olunaraq sağalıb, 9 473 nəfər vəfat edib, aktiv xəstə sayı 6 934 nəfərdir.

Ölkədə son sutka ərzində 6 847, hazırkı dövrədək isə 6 579 163 test aparılıb.

## Bakıda qadın ərinin 17 min manatını oğurladı



**Bakıda qadın evindən 17 mina manat oğurlayıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, Binəqədi Rayon Polis İdarəsinin 40-cı Polis Bölməsinə fevralın 28-nə keçən gecə Sulutəpə qəsəbəsindəki evlərin birindən 17.000 manat pul və mobil telefonun oğurlanması barədə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğun ev sahibinin arvadı tərəfindən törədilməsi müəyyən edilib və o, saxlanılıb.

Araşdırma aparılır.



## "Hər ötən gün Rusiyanın işini çətinləşdirir"

### Türkiyəli general: "Putinin danışıqlara hazır olmasını deməsi çarəsizliyin göstəricisidir"

(səh.5)

## Yeni prezident Paşinyanın əlini gücləndirəcək

### Baş nazir hakimiyyətin bütün qollarında nəzarətini təmin etdi

(səh.4)





# "Bakıda qanunsuz tikililərə son qoyulmalıdır"

## Prezident İlham Əliyev: "Yeni inşa edilən binalar ən yüksək memarlıq zövqünə uyğun olmalıdır"

**"Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur". Bunu Prezident İlham Əliyev deputat Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq".**

Ölkə rəhbəri qeyd edib ki, İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir: "Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri var, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz".

**"İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir"**

**Prezident deyib ki, İçərişəhərin tarixi simasının qorunması şəxsən onun nəzarətindədir:** "İçərişəhər Bakı şəhərinin özəyidir. Bakı şəhərini İçərişəhərsiz təsəvvür etmək mümkün deyil. Ancaq inzibati bölgü nöqteyi-nəzərdən mənim Sərəncamımla bir neçə il bundan əvvəl İçərişəhərdə xüsusi idarəetmə mexanizmi yaradılmışdır, idarə yaradılmışdır. İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər sadəcə olaraq açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi".

**"İçərişəhərə hər gün böyük axın var"**

Ölkə başçısı əlavə edib ki, İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün əlbəttə ki, böyük işlər görülür və görüləcək: "Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var. Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər".

> "Sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq"

**"Bulvarın hər bir yerində səliqə-sahman var"**

**Dövlət başçısı bəyan edib ki, Bakıda yeni inşa edilən binalar ən yüksək memarlıq zövqünə uyğun olmalıdır:** "Qeyd etdiyim kimi, mənim Sərəncamımla vaxtilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bulvar İdarəsi yaradılıb. Bulvar da Bakının bir hissəsidir, ancaq ayrıca bir inzibati vahididir. Nə üçün? Çünki bulvar da bizim milli sərvətimizdir və indi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi - qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar - üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan - ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür. Bax, bu amillər çox önəmlidir. Ona görə siz də təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar - istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin".

**"Qanunsuz tikililərin sayı xeyli azalıbdır"**

**Prezident diqqətə çatdırıb ki, qanunsuz tikililərə son qoyulmalıdır:** "Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır. Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır - Bakı Şəhəri İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək".

**İsmayıl**



# Moldovanın dövlət başçısı Prezident İlham Əliyevə telefonla zəng edib

**Martın 3-də Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Telefon söhbəti zamanı regional məsələlər barədə fikir mübadiləsi aparılıb, həmçinin Azərbaycan ilə Moldova arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Azərbaycan ilə Türkiyə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş təsdiq olunub

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanunu təsdiqləyib.**

2021-ci il sentyabrın 28-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş təsdiq edilib.

# Ukraynadan təxliyə olunan daha 201 Azərbaycan vətəndaşı ölkəyə gətirilib



**Azərbaycan vətəndaşlarının Ukraynadan təxliyəsini həyata keçirmək üçün təşkil olunan növbəti çarter reysi Bakıya enib.**

"Azərbaycan Hava Yolları" (AZAL) tərəfindən Rumıniyanın Yassı şəhərindən həyata keçirilən çarter reysləri ilə 201 nəfər (183 qadın, yaşlı və 18 körpə) ölkəyə qayıdıb.

*Qeyd edək ki, bundan əvvəl təşkil olunan üç çarter reysləri ilə daha 510 nəfər Azərbaycana gətirilib.*

# Zelenski söz verdi

## "Hər bir evi, küçəni, şəhəri yenidən quracağıq"

**Ukrayna şəhərlərində günlərdir atışmalar davam edir. Prezident Volodimir Zelenski ölkənin yenidən qurulacağına dair söz verib.**

"Şərq"in "CNN"ə istinadən verdiyi xəbərə görə, Zelenski deyib ki, Rusiya təzminatın nə olduğunu öyrənəcək: "Bütün kilsələrimizi dağıtsanız belə, bizim imanımızı, Ukraynaya və Allaha səmimi inamımızı, insanlara olan güvənimizi məhv edə bilməyəcəksiniz. Biz hər bir evi, hər bir küçəni, hər bir şəhəri yenidən tikəcəyik. Rəsmi Moskva "təzminat" və "töhfələr" sözlərini mütləq öyrənsin! Dövlətimizə və hər bir ukraynalıya qarşı etdiklərinizin əvəzini bizə tam verəcəksiniz!".

**Cəmilə Əzim**

# Müvəqqəti atəşkəs elan olundu

## Rusiya və Ukrayna danışıqların ikinci mərhələsində razılığa gəlib

**Dünən Belarusda Ukrayna və Rusiya arasında danışıqların ikinci mərhələsi keçirilib.**

**Bu barədə Ukraynanın Prezident Aparatı rəhbərinin müşaviri Mixail Podolyak Twitter səhifəsində yazıb.**

Gündəmdə olan mövzular dərhal atəşkəs, barışıq, dağıdılmış və ya daim atəşə tutulan kənd və şəhərlərdən mülki əhalinin çıxarılması üçün humanitar dəhlizlərin açılması idi. Belarusda Ukrayna və Rusiya arasında danışıqların ikinci mərhələsində nümayəndə heyətləri humanitar dəhliz açılması və müvəqqəti atəşkəslə bağlı razılığa gəldilər.

Bu barədə məlumatı jurnalistlərə Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixail Podolyak verib.

O qeyd edib ki, Rusiya ilə danışıqlar zamanı Ukrayna gözlədiyi nəticəni əldə edə bilməyib.

Podolyakın sözlərinə görə, Kiyev və Moskva danışıqları davam etdirmək barədə razılığa gəliblər, üçüncü raundun ən qısa zamanda keçirilməsi planlaşdırılır.



"Ukrayna və Rusiya Federasiyası vətəndaşların evakuasiyası, ərzaq və dərmanların çatdırılması üçün humanitar dəhlizlərin birgə təmin edilməsinə dair razılığa gəliblər", - Ukrayna Prezident Ofisinin rəhbəri bildirib.

O deyib ki, Kiyev və Moskva nümayəndələri arasında keçirilən danışıqlarda humanitar aspektlər ətraflı müzakirə edilib.

Rusiya nümayəndə heyətinin rəhbəri, RF prezidentin köməkçisi Vladimir Medinski isə deyib ki, Rusiya və Ukrayna maddələr üzrə anlaşma əldə edə bilərlər.

# İrəvandan sülh mesajları gəlir

## "Paşinyanın da açıqlaması bizə imkan verir ki, məsələni bitirək"



**Ermənistanın Baş Naziri Nikol Paşinyan müxalif partiya üzvlərinə səslənib. O, "Ermənistan" və "Mənim Şərəfim Var" partiyasının üzvlərindən Qubadlı rayonunun rəsmi adına Qubadlı və ya Sansar deməklərini tələb edib:**

"Əgər bu rayonun adı Sansardırsa, onda niyə sizin rəhbərləriniz 20 il ərzində həmin əraziləri Azərbaycana qaytarmaq üçün danışıqlar aparıb? Bu proses gizli olmayıb. Onların da qəbul etdiyi Madrid prinsiplərinin birinci bəndində yazılıb ki, 7 rayon Azərbaycana qaytarılsın".

**Son zamanlar Ermənistan rəhbərliyindən gələn müsbət mesajların arxasında dayanan məqsədləri "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, müharibədən məğlub ayrılan Ermənistan üçün hələ də qeyri-müəyyənlik var:** "Dünyada gedən proseslərdən görünür ki, bəşəriyyətin gələcəyi dumanlıdır. Böyük güclərin toqquşması insanlarda çaşqınlıq yaradıb. Ukrayna-Rusiya savaşı fonunda Kremlin müəyyən dərəcədə çətinliklə üzləşməsi İrəvanın bel bağlama siyasətində uğursuzluğun olmasını görməsilə nəticələndi. Ona görə də qarşı tərəfdən pozitiv mesajlar gəlir. Bunların arxasında isə qorxu dayanır. Ermənistanın sülh müqaviləsinin bağlanmasını gecikdirməsi, sərhədlərin müəyyənləşdirilməsində yaratdığı problemlər Azərbaycanın əsəblərini tarıma çəkir. Həmçinin Qarabağdan terrorçuların çıxarılmaması, atəşkəsin tez-tez pozulması dövlətimizin səbr kasasını daşırır. Hazırkı məqamda İrəvandan gələn açıqlamalar bizə imkan verir ki, məsələni bitirək. İndiki halda Paşinyanın açıqlaması həm cəmiyyəti, həm də müxalifəti ciddi şəkildə ram edə bilər".

**Xanlar Əlibəy**



# Quru yolla keçid baş tutub

## 540 nəfərin Rusiyadan Azərbaycana keçidi təmin edilib

**Koronavirus (COVID-19) infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən, Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən yerüstü sərhəd yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və onların ailə üzvləri üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Operativ Qərargahın müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq 23 fevral - 28 fevral 2022-ci il tarixlərində növbəti sərhəd buraxılışları təşkil edilib.**

Xarici İşlər Nazirliyindən (XİN) "Şərq"ə verilən məlumata görə, sərhəd buraxılışlarının həyata keçirilməsi üçün Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasına ezam olunub. İşçi heyətin üzvləri sərhədi keçmək istəyən Azərbaycan Respublikası vətəndaşları və onların ailə üzvlərini qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən olunmuş gündəlik kvotaya uyğun olaraq, qeydiyyata alınmış 540 nəfərin 23 fevral - 28 fevral 2022-ci il tarixlərində (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin edilib.



# MEDİA-da yayım şirkətlərinin problemləri müzakirə olunub

## Görüşdə Bakı şəhəri ilə yanaşı rayonlarda da yayım işinin təkmilləşdirilməsinə ehtiyac olduğu vurğulanıb

**Mart ayının 3-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində çap mediası məhsullarının yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib.**

MEDİA-dan "Şərq"ə verilən xəbərə görə, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, görüşün əsas məqsədi çap mediası məhsullarının yayım sahəsindəki mövcud vəziyyətinin təhlili, yayım prosesinin səmərəliliyinin artırılması və bu sahəyə dair mövcud normativ hüquqi aktların müddəalarının şərh edilməsidir.

*Görüşdə Bakı şəhəri ilə yanaşı rayonlarda da yayım işinin təkmilləşdirilməsinə ehtiyac olduğu vurğulanıb. Sonda görüş iştirakçılarının çap mediası məhsullarının abunə və satışının daha səmərəli təşkili istiqamətində təklifləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.*

# Reallıqlarla barışır

## Paşinyanın açıqlamasında sülhə maraqlı olduğu görünür



"Ancaq əvvəlcə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirməlidir"

**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh sazişinin imzalanacağını bəyan edib. "Ermənistanın diplomatiya günü"nə həsr olunmuş tədbirdə çıxış edən baş nazir hökumətin gündəliyində olan məsələlərdən danışıb:**

"Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası, həmçinin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələləri var".

Paşinyan çıxışı zamanı onu "torpaq itirilməsinə" görə tənqid edən müxaliflərə də cavab verib. O, parlamentin "Ermənistan" və "Şərəf duyuram" fraksiyası üzvlərindən Qubadlı rayonunun adının "Sanasar" olduğunu deməmələrini tələb edib: "Əgər bu rayonun adı Sanasardırsa, onda niyə sizin rəhbərləriniz 20 il ərzində həmin əraziləri Azərbaycana qaytarmaq üçün danışıqlar aparıb? Bu proses gizli olmayıb. Onların da qəbul etdiyi Madrid prinsiplərinin birinci bəndində yazılıb ki, 7 rayon Azərbaycana qaytarılsın".

**Ermənistan baş nazirinin açıqlamaları ilə bağlı "Şərq"ə danışan politoloq Məhəmməd Əsədullazadə deyib ki, Rusiyanın izolyasiya olunması və Ukraynada hərbi uğursuzluğu Paşinyanın sülh müqaviləsini ortaya atmasına gətirib çıxarıb.** Analitikə görə, baş nazir ilk növbədə 10 noyabr və sonrakı danışıqlarda əldə olunan razılaşmalara əməl etməlidir ki, sülh müqaviləsi bağlansın: "Ermənistan tərəfi sülh deyə bilər. Amma əsas sual odur ki, İrəvan hansı təkliflər əsasında sülh müqaviləsində maraqlıdır? Ermənistan Azərbaycanın konstruktiv təkliflərini qəbul etməlidir. Azərbaycanın bütün təklifləri beynəlxalq hüquqa söykənir. Biz Ermənistana ərazi iddiaları irəli sürmürük. Ümumən, Paşinyanın sülhə maraqlı olduğu görünür. Amma Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirməlidir. Sülh müqaviləsinin bağlanmasında maraqlıdırsa və şərtlərimizi qəbul edirsə, onda açıq-aşkar etiraf etməli, ən azından humanist davranış sərgiləyərək Novruz bayramında Azərbaycan xalqını və prezidentini təbrik etməlidir".

**Siyasi şərhçi Samir Hümbətov da "Şərq"ə deyib ki, Rusiyanın başının Ukraynada işğala qarışdığı vaxtda Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanla bağlı açıqlamaları heç də təsadüfi deyil:** "Paşinyan digər erməni siyasətçilərindən fərqli olaraq yeni reallığı dərk edir. Onun müxaliflərə Azərbaycan ərazisinə "Sanasar" deyil, Qubadlı deyin" söyləməsi, "sülh müqaviləsi bağlamalıyıq" deməsi və kommunikasiyalardan danışması buna dəlalət edir. Paşinyan uduzmuş Rusiyanın deyil, hər vəziyyətdə qalib olmağı bacaran Qərbin fikirlərinə qulaq asmağı üstün tutur. Qərb və yeni dünya reallıqları isə Ermənistanı Azərbaycanla münasibətləri normallaşdırmağa məcbur edir".

İsmayıl Qocayev



# Ukrayna, Gürcüstan və Moldovanın Aİ-yə üzvlüyü real görünmür

## İndi verilən bütün açıqlamalar siyasi məqsəd daşıyır

**Avropa İttifaqı (Aİ) Gürcüstan və Moldovanın təşkilata üzvlüklə bağlı müraciətini qəbul etməyə hazırdır. Aİ-dən bildirilib ki, müraciətlər yaxın zamanda ediləcək.**

Gürcüstan hökuməti ötən gün Aİ namizədi statusu üçün martın 3-də rəsmi şəkildə müraciət ediləcəyini açıqlayıb. Xatırladaq ki, Ukraynanın Aİ üzvlüyü məsələsi ilə bağlı qətnamə qəbul edilib. Avropa Parlamenti martın 1-də qəbul etdiyi qətnamə ilə Ukraynaya Avropa İttifaqı üzvlüyünə namizəd statusunun verilməsini dəstəkləyib. Qətnamə baxılmaq üçün Aİ qurumlarına və bloka üzv ölkələrin rəhbərliyinə təqdim olunub. Avropa Parlamentinin qətnamələri icbari-hüquqi deyil, tövsiyə səciyyəsi daşıyır.

**Üç ölkənin Avropa İttifaqına üzvlüyü barədə "Şərq"ə fikirlərini bölüşən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Ukraynanın üzvlük məsələsi müharibənin, daha doğrusu, Rusiya ilə qarşıdurmanın tərkib hissəsi kimi nəzərdən keçirilir. Analitikə görə, Avropa İttifaqı iqtisadi qurum hesab olunsa da, belə açıqlamalar siyasi məqsəd daşıyır:** "Moldova, Gürcüstan, Ukrayna ilə müqayisədə Türkiyə daha güclüdür və iqtisadi baxımdan çox öndədir. Türkiyə həm də NATO-nun üzvüdür. Yenə deyirəm, adı çəkilən üç ölkənin Aİ-yə üzvlüyü sadəcə Rusiya faktoruna görə, siyasi amillərdən dolayı gündəmə gətirilib. Amma hesab etmirəm ki, Gürcüstan və Ukrayna quruma üzv olmaq bağlı tələbləri qarşılamaq imkanındadır. Aİ-yə üzvlükdən sonra NATO-ya qəbul olmaq məsələsi ortaya atılacaq. Lakin Gürcüstan və Ukraynanın ərazi bütövlüyü ilə bağlı ciddi problemləri var. Hərbi təhlükəsizlik məsələsi hərbi alyans, o cümlədən Aİ üçün problemlidir. Ümumən, üç ölkənin qısa zamanda Aİ-yə üzvlüyü real görünmür".

İsmayıl Qocayev

# Şəhərdə eybəcər, plansız tikililər var

## Sahib Məmmədov: "Əminəm ki, prezidentin xəbərdarlığından sonra müsbət nəticələr olacaq"



**Prezident İlham Əliyev martın 3-də Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən sahibkarlara müraciət edib: "Qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq".**

Dövlət başçısı bildirib: "Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək".

**Prezidentin qanunsuz və səliqəsiz tikililərlə bağlı xəbərdarlığı haqqında "Şərq"ə danışan Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirib ki, Prezidentin narahatlığına ciddi əsas var:**

"Bakı şəhərində həyətlərdə, gözdən uzaq yerlərdə qanunsuz olaraq tikintilər gedir. Yerli icra hakimiyyətləri hansı yol ilə icazə verdiklərini bilmirəm. Həyət-bacaları tamam korlayırlar, yanğın təhlükəsini artırırlar. Ona görə Prezident xəbərdarlıq edir. Bu proses davam etməkdədir. Yeri gəlmişkən, Cənab Prezident bu barədə dəfələrlə danışıb. Təəssüf ki, yerlərdə yerli icra orqanları buna fikir vermirlər - yaşıllıqları qırmağa davam edirlər, enli küçələrin ortasındakı yaşıl zolaqları binalarla əvəz edirlər. Nəticədə bir enli küçə iki dar küçəyə çevrilir".

**Sahib Məmmədov hesab edir ki, belə xəbərdarlıqlardan sonra müəyyən inkişafa meyilli nəticələr olur:**

"Prezidentin dedikləri ilə tam razıyam. Bəli, şəhərdə eybəcər, yöndəmsiz, plansız tikililər var. Əlbəttə, hər dəfə ölkə başçısının xəbərdarlıqlarından sonra müsbətə doğru dəyişən proseslərin şahidi oluruq. Əminəm ki, bu çıxışın da müsbət nəticəsi olacaq".

Çimnaz Şahlar

**Ötən gün Baş nazir Əli Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin rəhbərliyi və dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə Şuşada müşavirə keçirilib.**

Belə ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin üzvləri Şuşanın tarixi-mədəni abidələrini ziyarət ediblər.



# Önəmli səfər...

## Şuşa müşavirəsi işləri sürətləndirəcək

Şuşa şəhərində icra olunan layihələr, aparılan bərpa, abadlıq-quruculuq işləri barədə aidiyyəti qurumların rəhbər şəxsləri ətraflı məlumat verib.

**Şuşada gerçəkləşən toplantını "Şərq"ə şərh edən millət vəkili Ceyhun Məmmədov bildirib ki, bu, çox önəmli bir səfərdir:** "Zaman-zaman həyət görüşür, Qarabağla bağlı görülən işləri müzakirə edirdilər. Müəyyən müzakirələr aparılır. Şuşaya səfər edib proseslərlə yaxından tanış olmaq işlərin reallaşması baxımından çox əhəmiyyətlidir. Məsələlərə yerində baxılır, təhlil edilir. Bütün hallarda məsələ ilə yerində tanış olub müzakirə aparmaq daha yaxşıdır. Bu addım Şuşada görülən işlərin sürətlənməsinə töhfəsini verəcək".

**Şuşa müşavirəsindən danışan millət vəkili Cavid Osmanov isə öz növbəsində müharibədən sonra həyata keçirilən işlər barədə fikirlərini bölüşüb:** "44 günlük Vətən müharibəsində Prezident İlham Əliyev, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan 30 illik həsrətə son qoydu. Vətən müharibəsi bitdikdən sonra işğaldan azad olunmuş ərazilərimiz Prezidentin nəzarəti və tapşırığı ilə bərpa olunmağa başladı. Qısa müddət ərzində yenidənqurma və bərpa işləri aparıldı. Füzuli Beynəlxalq Hava Limanının tikintisi, avtomobil nəqliyyat yollarının, dəmiryolu xətlərinin bir neçə istiqamətdə çəkilməsi, infrastrukturun qurulması, bir sıra şəhərlərimizin baş planının təsdiqlənməsi, milli, mədəni tarixi abidələrimizin restavrasiyası kimi addımlar atıldı. Ölkə başçısının tapşırığı ilə görülən işlərin bir mərkəzdən idarə edilməsi üçün Əlaqələndirmə üzrə İşçi qrupu yaradılıb. Bu da layihələrin ardıcıllıqla həyata keçirilməsinə şərait yaradır".

Millət vəkilinin sözlərinə görə, müşavirənin Şuşada keçirilməsi heç də təsadüfi deyil: "İstifadəyə verilmiş, tikintisi yekunlaşmamış obyektlərə baxış keçirildi. Görüləcək işlərin gələcək formatı müəyyənləşdi. Prezident 2022-ci ili "Şuşa ili" elan edib. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəridir. "Şuşa ili" çərçivəsində təsdiqlənmiş tədbirlər planına uyğun bir sıra beynəlxalq əhəmiyyətli, mədəni mərasimlərin keçirilməsi nəzərdə tutulur. Şuşa ölkəmiz üçün strateji məkandır. Belə iclasın keçirilməsi isə vacib məqamdır".

Aygün Tahir

# Rusiyanın hərb sistemi çöküb!

## 90-cı illərin əsgər payı, partlamayan sursatlar vəziyyəti göz önünə sərir



**Sosial şəbəkələrdə Rusiya ordusunun zəbt etdiyi Ukrayna şəhərlərindəki mağazalara, supermarketlərə hücum etdiyini əks etdirən videogörüntülər yayılıb. Hətta videosüjetlərin birində rus əsgərin 90-cı illərdə hazırlanmış əsgər yeməyindən istifadə etdiyi görünür.**

Görüntülər açıq-aydın Rusiya ordusunun maddi-texniki təchizatının zəifliyindən xəbər verir. Hazırda xarici kəşfiyyat orqanları da məsələni gündəmə daşıyır.

**Tanınmış araşdırmaçı-jurnalist Arif Əliyev "Şərq"ə açıqlamasında təsdiqləyir ki, Rusiyanın Ukraynaya hücumunun ilk günlərindən belə görüntülərlə rastlaşırıq:** "Hətta bəzi rus zabitlərinin də mövcud durumdan narazılığını eşidirik. Rus əsgərlərinin komandirləri onların payını yeyib, onlara keyfiyyətsiz məhsul verirsə, bu o demək deyil ki, onlar Ukrayna torpaqlarında soyğunçuluqla məşğul ola bilərlər.

Heç kim özgə torpağına gəlib, əlavə ərazilər tutub, üstəlik orda əlinə keçəni çapıb-talamaq kimi bir hüquqa sahib deyil. Deyən lazımdır ki, ay rus əsgəri, sənin orda nə ölümün var?! Hələ belə əməllərində özlərinə haqq da qazandırırlar".

**A.Əliyevin fikrincə, bu sadəcə, rus ordusunun təchizatında olan problemlə bağlı deyil:** "Əsas məsələ bütün ordu strukturunun çürüməsidir. Eyni zamanda burda korrupsiyanın yüksək olması faktı var. Rusiyanın hərbi sahəsində ciddi problemləri var. İkinci Qarabağ savaşında ermənilər tərəfindən müxtəlif ərazilərimizə atılan partlamayan rus sursatları rəsmi Moskvanın çökmüş hərb sisteminin ən bariz göstəricisi idi".

Günəş Mərd

**Rusiyanın Ukraynaya təcavüzü genişlənir. Qərb ölkələrinin sanksiyaları ilə yanaşı, Moskvanın işğal siyasətinə rus ictimaiyyəti də etirazını bildirir. Rusiyanın bir neçə şəhərində etiraz aksiyaları polis tərəfindən sərt formada yatırılsa da, ruslar hökumətə qarşı şüarlar səsləndirməkdən çəkinmirlər.**

Sankt-Peterburqda küçələrə axışanlar "Biz müharibə istəmirik", "Ukrayna bizim düşmənimiz deyil" kimi şüarlar səsləndiriblər. İştirakçılar indiki dövrdə müharibənin biabırçılıq olduğunu söyləyiblər.

Əgər oliqarxların və xalqın etirazı genişmiqyaslı olarsa, hakimiyyətin devrilməsi reallaşacaq



# Putin üçün Rusiyada ciddi problemlər yaranacaq

## İlk dəfədir ki, ölkə belə böyük ölçüdə iqtisadi təzyiqlərlə üzləşir

Polisin yüzlərlə aksiyaçını həbs etdiyi deyilir. Ekspertlərin fikrincə, müharibə uzanar, Rusiyaya qarşı sanksiyalar dərinləşərsə, "müharibəyə yox" deyənlərin sayı artacaq.

**Rusiyadakı etirazların miqyasını "Şərq"ə dəyərləndirən Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib ki, 23-cü ildir Vladimir Putin hakimiyyətdədir. Partiya rəhbərinin sözlərinə görə, Kreml rəhbəri ötən illər ərzində daha çox avtoritar rejim formalaşdırmağa üstünlük verib:** "Putin ona etiraz edən kifayət qədər ciddi qüvvələri sıradan çıxarıb. Faktiki olaraq Rusiyada Putinə qarşı çıxacaq siyasi təşkilat və ya fiqur yoxdur. Ukrayna ərazisinin işğalına başlanması və ölkənin hərtərəfli sanksiyalara, təzyiqlərə məruz qalması fonunda Rusiyanın müxtəlif şəhərlərində etirazlar baş qaldırdı. Nəzarı kütlənin əsasını rus oliqarxları təşkil edir. Milyardlara sahib rusiyalı iş adamlarına çox ciddi ziyan dəyib. Sanksiyalardan sonra rus biznesmenlərin bir çoxunun Avropadakı əmlakı, şirkətləri müsadirə olunub, bank hesablarına həbs qoyulub. Bu da oliqarxların nəhəng bizneslərinin çöküşü deməkdir. Əgər oliqarxların etiraz aksiyası davamlı, ciddi və genişmiqyaslı olarsa, xalqın da dəstəyini qazanarsa, Putin üçün problem yaranacaq. Hətta Kreml rəhbərinin hakimiyyətdən devrilməsi də reallaşar. Nəzərə alaq ki, Rusiya ilk dəfədir ki, belə böyük ölçüdə iqtisadi təzyiqlərlə üzləşib. Rusiya neft və qazını satmaqda çətinlik çəkir, böyük şirkətlər rus bazarından çıxır, xaricdəki bank hesabları dondurulur və s. Bütün bunlar isə birbaşa Putinin həyata keçirdiyi siyasətin nəticəsi kimi dəyərləndirilir".

**A.Əlizadə vurğulayıb ki, Ukraynada ölümə göndərilən rus əsgərlərinin yaxınlarının etirazları da hökumətə qarşı yönəlir:** "Kreml xalqı aldadırdı ki, guya, Ukraynada neonasistlər rus icmasını sıxışdırır. Həmçinin, NATO Ukrayna tərəfdən Rusiyaya çox ciddi təhdid yaradır və s. Rus cəmiyyəti bunların yalan olduğunun fərqinə vardı. Əgər Qərb Rusiyanı dayandırmaqda çətinlik çəkirsə, rus xalqı özü Putinə "dur" deməlidir. Putinin apardığı siyasət sadəcə Rusiyanın deyil, özünün də sonunu gətirir".

İsmayıl Qocayev



# “Üçüncü dünya müharibəsi riski artır"

## Ukraynada müharibə uzanarsa Rusiya - NATO toqquşması reallaşacaq

**”Xaricdən 16 mindən çox könüllü döyüşmək üçün Ukraynaya gəlib”. Bunu Ukrayna Prezidenti V.Zelenski xalqa müraciətində deyib. O bildirib ki, dost ölkələrin köməyi davam edir, silah dəstəyi artır:**

”Müdafiəmizin bütün xətlərinin təhlükəsizliyi təmin olunub. Ruslar narahat olub. Odessa şəhərini məhv etmək istəyirlər. Amma Qara dənizin ancaq dibini görəcəklər”. Onun sözlərinə görə, xaricdən 16 mindən çox əsgər döyüşmək üçün könüllü olaraq Ukraynaya gəlib. Zelenski həmçinin Rusiyanın taktika dəyişdirdiyini vurğulayıb: ”Qarşı tərəf şəhərlərimizə ancaq raket atır. Bu, şəhərlərimizə heç nə edə bilmədiklərinin göstəricisidir”.

**“Ukraynalıların təslim olacağını düşünənlər heç nə bilmirlər”**

Ukrayna prezidenti bəyan edib ki, ukraynalıların təslim olacağını düşünənlər heç nə bilmirlər: ”Ukraynalıların sınmış şəkildə təslim olacağını düşünənlər yanılırlar. Bizi dəfələrlə məhv etmək istəyiblər. Bacarmayıblar. Biz neçə belə çətinlikləri dəf etmişik. Ukraynalıların qorxaraq, sınmış şəkildə təslim olacaqlarını düşünənlər Ukrayna haqqında heç nə bilmirlər. Onların Ukraynada görə biləcəyi bir iş yoxdur. Evinə get. Dünyada deyil, öz ölkəndə, Rusiyada rusdilli insanları qoru”.

**Ukraynanı bir milyon insan tərk etdi**

Rusiya ordusunun Ukraynada başlatdığı hərbi əməliyyatdan sonra ölkəni bir milyon insan tərk edib. BMT-nin Qaçqınlar üzrə ali komissarı Filippo Qrandi tvitter səhifəsində yazıb ki, cəmi yeddi gün ərzində bir milyon qaçqının Ukraynadan qonşu ölkələrə getməsi ciddi fəlakətdir: ”Müharibə dayanmalıdır”.

Ukrayna Xarici işlər naziri Dmitri Kuleba deyib ki, çaxnaşma içində olan Moskva indi sanksiya meydançası üçün həll yolları axtarmağa başlayıb. Nazirin məlumatına görə, söhbət Rusiyaya potensial olaraq kömək edə biləcək üç ölkədən gedir: ”O, dünyada üç ölkə tapmağı bacardı. Biz bu ölkələrin hansılar olduğunu bilirik və onlarla işləməyə hazırıq. Biz digər tərəfdaşlarla da danışıqlar aparacağıq ki, onların təcavüzkara yardım etməsinin qarşısı alınsın”.

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib ki, Rusiya Ukrayna ilə danışıqlara hazırdır. Lakin Moskva təhlükə yaradan infrastrukturun və silahların məhv edilməsi əməliyyatını davam etdirəcək: ”Biz Ukraynada Rusiyanın təhlükəsizliyini təhdid edən infrastrukturu təhlükəli vəziyyətdə saxlaya bilmərik”.

**“Rusları sərhədə doğru qovuruq”**

Ukrayna Milli Qvardiyasının rəsmisi Xariton Starski deyib ki, Kiyevin yaxınlığındakı İvankova, Borodyanki və Kozaroviç rayonlarında döyüşlər davam edir: ”Hava Hücumundan Müdafiə Qüvvələri Müdafiə Nazirliyinin yerləşdiyi rayonu atəşə tutmaq istəyən iki təyyarə vurub. Rus ordusu İvankovonu tutmağa cəhd edib. Ancaq hazırda həmin ərazidə düşmənin yalnız yanmış texnikalarını görmək olar. Hazırda İvankovada Ukrayna ordusu rusları Rusiyaya tərəf qovur”.

**“Sanksiyalardan dünya iqtisadiyyatı əziyyət çəkəcək”**

Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin bildirib ki, dünya iqtisadiyyatı Qərbin antiRusiya sanksiyalarından əziyyət çəkəcək, ona görə də nə vaxtsa onlardan imtina etmək lazım gələcək: ”Rusiya ətrafında vəziyyəti sərtləşdirsəniz, bu şərtlər altında dünya iqtisadiyyatı, qlobal iqtisadi proseslər zərər görəcək. Müəyyən müddətə səs-küy və sərt tədbirlər görmək olar, lakin sonra bu tədbirlərdən uzaqlaşmaq lazım olacaq. Çünki bu, baha başa gələcək”.

Böyük Britaniyanın XİN başçısı Liz Trass vurğulayıb ki, Böyük Britaniyanın Baltikyanı müttəfiqlərinə sadiqliyi sarsılmazdır: ”Biz Ukraynaya özünü müdafiə etməkdə, NATO-nun şərq cinahını gücləndirməkdə və Avropanın təhlükəsizliyini dəstəkləməkdə kömək edirik”.

Avropa İttifaqı Komissiyasının rəhbəri Ursula fon der Leyen də deyib ki, Ukraynada hərbi əməliyyatlar dayandırılmalıdır: ”Biz Ukraynaya sarsılmaz dəstəyimizi ifadə edirik. Rusiyaya sərt sanksiyalarla cavab veririk. Məqsədimiz Kremlin qonşusu ilə müharibə aparmaq imkanlarını azaltmaqdır”.

**Politoloq Elxan Şahinoğlu düşünür ki, Ukraynada müharibə uzanarsa Rusiya-NATO toqquşması ehtimalı artacaq. Onun sözlərinə görə, Ukrayna uğrunda savaşmaq istəyən xarici ölkə vətəndaşları Kiyevə axın etməyə başlayıblar:** ”Savaşmaq istəyənlər arasında NATO-ya üzv ölkələrin vətəndaşları da var. İkincisi, NATO ölkələri Ukraynanı silahlandırır. Rusiya Ukrayna ərazisini bombardman edərkən həmin silahların çatdırılma məntəqələrini hədəf ala bilər. Üçüncüsü, Rusiya Ukraynaya Qara dənizdən də hücum təşkil edib. Rusiyanın NATO-ya üzv ölkələrdən birinin Qara dənizdə üzən hərbi gəmisini və ya bölgə üzərində uçuş həyata keçirən təyyarəsini vura bilmə ehtimalı artır. Əsas sual budur: Rusiya bilərəkdən və ya bilməyərəkdən NATO-ya məxsus gəmini və ya hərbi təyyarəni vurarsa və bu zaman hərbçilər ölərsə, Şimali Atlantika Blokunun reaksiyası necə olacaq? Bu, Moskvanın özünü necə aparacağından asılıdır. Rusiya üzr istəyərsə, gərginlikdən qurtulmaq mümkündür. Yox əgər Rusiya vurduğu hərbi gəmi və hərbi təyyarəyə görə haqlı olduğunu israr edərsə, NATO adekvat addımlar barədə düşünəcək. Bu halda haqqında çox danışılan üçüncü dünya müharibəsi riski artacaq”.

**İsmayıl Qocayev**

# Yeni prezident Paşinyanın əlini gücləndirəcək

## Baş nazir hakimiyyətin bütün qollarında nəzarətini təmin etdi



Vahan Xaçatryan sülh yaratmaq prosesinə təkan verə bilər

**Ermənistanda Vahan Xaçatryan prezident seçilib.**

**”Şərq” xəbər verir ki, nəhayət ikinci cəhddə parlament beşinci dövlət başçısını seçə bilib.**

Hakim ”Mülki müqavilə”dən olan namizədin lehinə 71 deputat səs verib.

Qeyd edək ki, keçmiş prezident Armen Sarkisyan yanvar ayında istefa verib. O, konstitusiyaya görə hadisələrə təsir etmək səlahiyyətinə malik olmadığını vurğulayıb. Politoloqlar bunu Ermənistan hökümətinin Azərbaycan və Türkiyə ilə barışıq istiqamətində güzəşt və razılaşmalara getməsi ilə bağlayır.

İndi diqqətlər yeni prezidentə yönəlib. Onun prezident seçilməsi ilə nə dəyişə bilər?

**Sualmızı cavablandıran sabiq müşavir, politoloq Qabil Hüseynli ”Şərq”ə açıqlamasında bildirib ki, yeni prezident Nikol Paşinyanın əlini gücləndirəcək:**

”Xaçatryanın mövqeyi radikal deyil. Reallıqları düzgün qavradığına görə sülh yaratmaq prosesinə müsbət təsir göstərəcək. Artıq Paşinyan hakimiyyətin bütün qolları üzərində nəzarəti təmin edir. Bundan sonra həm müxalifətə, həm də qisasçı qüvvəllərə əhəmiyyət vermədən sülh yaratmaq prosesinə gedə bilər”.

Politoloq hesab edir ki, yeni prezident bölgədə baş verənlərə təsir edəcək:

”Zənnimcə, belə bir şəxsin əvvəllər Yüksək Texnologiyalar Nazirliyinə rəhbər seçilməsi kifayət qədər müsbət bir hadisədir. Əvvəlki prezident - Armen Sarkisyandan fərqli olaraq Paşinyanla əl-ələ verəcək, bölgədə sabitliyin qorunmasında, Azərbaycan və Türkiyə ilə əlaqələrin sahmana salınmasında birgə iştirak edəcəklər”.

**Cəmilə Əzim**

# Xalq ayağa qalxmalıdır

## Ruslar ölkələrini etirazla xilas edə bilərlər



**Rusiya müxalifətinin həbsdəki lideri Aleksey Navalnı ölkəsinin Ukraynaya qarşı hərbi təcavüzünü pisləyib. Navalnının müharibə əleyhinə müraciət-çağırışı onun ”Instagram” səhifəsində paylaşılıb.**

O, müraciətində rusiyalıları Ukraynaya qarşı hərbi təcavüzə etiraz olaraq küçələrə çıxmağa çağırıb: ”Əgər bu gün Rusiyada fəxr ediləcək bir şey varsa, o da ”Müharibəyə yox” şüarı ilə küçələrə çıxdıqları üçün həbs olunan 6835 nəfərdir. Bir gün də gözləmək olmaz. Gəlin, müharibə əleyhinə mübarizə aparaq”.

**Azərbaycan Demokratik Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu A.Navalnının rus xalqına çağırışını ”Şərq”ə şərh edib:** ”Belə məqamlarda bu cür çağırışlar xüsusi əhəmiyyət kəsb edir. Hazırda Putin açıq şəkildə beynəlxalq cinayətə əl atıb. Kimsə onu yerində oturtmalıdır. Bunun ən çox ziyanını da elə rus xalqı görür. Xalq özü ayağa qalxıb Putini cilovlamalıdır”.

*S.Cəlaloğlunun sözlərinə görə, indi rus xalqı öz ölkəsini xilas etmək istəyirsə, Putindən birdəfəlik imtina etməlidir.*

**Günəş Mərd**

# Forsmajor hallarda hüquq işləmir

## Yaxşı olar ki, universitetlərdən uzaqlaşdırılan rus tələbələr ilk öncə Putinə etiraz etsinlər

**Rusiyanın Ukrayna ərazisinə hərbi təcavüzündən sonra Avropada təhsil alan rusiyalı tələbələrin təhsil qeydiyyatının ləğvi və onların ölkələrinə geri göndərilməsinə qərar verilib.**

Rus tələbələr isə buna etiraz edərək təhsil hüquqlarının əllərindən alınmasından narazı qalıblar. Rusiyanın İnsan Hüquqları üzrə Müvəkkili Tatyana Moskalkova rusiyalı tələbələrin hüquqlarının müdafiəsi ilə bağlı avropalı hüquq müdafiəçiləri və bir sıra universitetlərin rektorlarına müraciətlər ünvanlayıb.

**Məsələni ”Şərq”ə dəyərləndirən təhsil eksperti Nabatəli Qulamoğlu deyib ki, hüquq və fakt ayrı anlayışlardır. Ekspertə görə, hüquq məntiqə bağlıdır və bütün elmlər məntiq əsasında formalaşır:** ”Hesab edin ki, bir ölkədə vətəndaş digər şəxsin əmlakına ziyan vurub. Normal ölkələrdə bu ziyanı dövlət ödəyir. Çünki dövlət xuliqanlıqla məşğul olan vətəndaşına düzgün tərbiyə verməyib, onu normal şəxsiyyət kimi yetişdirə bilməyib. Yaxud bir ölkənin başçısı hansısa beynəlxalq normanı pozaraq bütün dünya xalqları üçün təhdid yaradır. Rusiya rəhbəri Vladimir Putinin simasında da bunu söyləmək mümkündür. Kreml rəhbərinin addımları forsmajor hal yaradır. Forsmajor hallarda isə hüquq işləmir. Ona görə də hesab edirəm ki, xarici ölkələrin universitetlərində təhsil alan rus tələbələrin etirazının əsası yoxdur. Bu, birbaşa tələbələrin olmasa da, Putinə səs verən, onun işğalçılıq siyasətini dəstəkləyən valideynlərinin günahıdır. Rus ictimaiyyəti öz sözünü deməyi bacarsaydı, başlarındakı şəxs digər ölkələrə qarşı hərbi təcavüzdən çəkinərdi”.

**N.Qulamoğlunun fikrincə, Kreml rəhbərinə bu qədər səlahiyyət verən, onun əl-qolunu uzun edənlər məhz rus xalqıdır:** ”Təsəvvür edin, Rusiyanın 400 deputatından biri belə Ukrayna ilə müharibəyə qarşı çıxmayıb, hamısı işğalın lehinə səs veriblər. Həmin deputatları seçən rus toplumudur. Yaxşı olar ki, rus tələbələr Avropa ölkələrinə, təhsil aldıqları universitetlərin rəhbərlərinə deyil, işğalçılıq siyasəti ilə onların uzaqlaşdırılmasına səbəb olan Putinə qarşı çıxsınlar, ona etiraz etsinlər. Rusiya ilə bütün əlaqələri kəsmək lazımdır. Sadəcə, iqtisadi sanksiyalar yetərli deyil”.

**İsmayıl Qocayev**

# Motosiklet qəzaları Bakının gününü qara edib

## Nömrə yox, qeydiyyat yox, vəsiqə yox, kim necə istəyir sürür

**Mələhət Rzayeva**

**Paytaxtda motosiklet qəzalarının sayı artıb. Təkcə ötən gün Kliniki Tibbi Mərkəzə müxtəlif motosiklet qəzalarından bir-birinin ardınca 6 yaralı gətirilib. Mərkəzin mətbuat xidmətinin məlumatına görə, gətirilən yaralılardan 3 nəfərin vəziyyəti nisbətən ağır olduğuna görə xəstəxanaya yerləşdirilib, digər 3 nəfər isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Kliniki Tibbi Mərkəzin Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin müdiri Aydın Əlizadənin sözlərinə görə, bu cür qəzalar demək olar ki, hər gün baş verir:**

”Gündəlik olaraq bir və ya bir neçə motosiklet qəzasından yaralılar gəlir. Bunların böyük əksəriyyəti qida çatdırılması ilə və ya kuryerliklə məşğul olan sürücülərdir. Ötən gün 5 belə qəza baş verib ki, nəticədə 6 yaralı gətirilib. Onlardan biri hətta piyadanı vurmuşdu və hər ikisi yaralanmışdılar”. Ümumiyyətlə, motosiklet qəzalarından gələn yaralıların statistikasında hər ay artım qeydə alınır.

O zaman sual yaranır: nə baş verir? Yollarda, avtomobillərin arasıyla ildırım sürəti ilə ötüb keçən, tıxacda hətta səkiyə dırmaşıb özünə yol açan, piyadaları belə saya salmayan mopedləri - motosikletləri hamımız görürük. Tələsirlər. Sifariş çatdırmağa və qazanc əldə etməyə. Onlar belində qutu gəzdirən moped sürücüləridir. Hazırda daşıyıcı, ünvandan-ünvana çatdırılma ilə məşğul olan şirkətlər çoxdur. ”Bolt Food”, ”Glovo”, ”Fonibo”, ”189 delivery”, ”Getir”, ”Voop”, ”Tuk-Tuk”, ”Zənbil”... Çatdırılma xidməti velokuryer, avtomobil, piyada və yüngül motosikletlərlə həyata keçirilir. ”Wolt” şirkətinə mənsub daşıyıcılar lap çoxdur. Gündəlik qazancları təxminən 30-40 manat olur. Şəxsi motosikleti olanların işi bir az yüngüldür. Motosiklet kirayələmək üçün əlavə ödəniş etməli olmurlar. Amma hamının da motosiklet almağa maddi imkanı çatmır. Müasir şərtlər moto-kuryerliyə tələbatı artırır. İnsanlar ofisdə, evlərində əyləşdikləri yerdəcə qida ilə təmin olunmaq istəyir (yeri gəlmişkən, bu da tənbəlliyin bir növüdür). Və moto-kuryerlər də yüngül yemək həvəskarları hesabına qazanc əldə edir. Amma həm də həyatları bahasına. Yuxarıda qeyd edilən qəza statistikası kuryerlərin özlərini real təhlükə altında qoyduğunun sübutudur. Yollarmı pisdir, sürücülərmi, yoxsa tələskənlik qəzaların sayını artırır?



“Qəzaların, faciələrin qarşısını almaq üçün qanunvericiliyə dəyişiklik edilməlidir, mopedlərin dövlət nömrə nişanı ilə təmin edilməsi və qeydiyyata alınması vacibdir”

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, pandemiya dönəmində moto-kuryerlərə tələbat çox artdı:**

- Əvvəllər şəhərdə bu qədər moped yox idi. Pandemiyada daşınma xərcləri artdı, bu da moto-kuryerliyə marağı və tələbatı artırdı. Pandemiya dövründə kafe və restoranlar uzun müddət bağlı qaldı. Evlərə çatdırma xidmətindən istifadə edilməyə başlandı. Bu vaxta qədər də ünvana çatdırılma xidməti var idi, lakin indi kimi çox deyildi. Ona görə yollarda mopedlərin sayı da artıb. Avtomobil sürücüləri də mopedlərlə yolu paylaşmağa vərdiş etməyib. Moped sürücülərinin də günahı var, çünki bir çoxları motosikleti idarə etməyi bilmir, sürücülük vəsiqələri də heç yoxdur. Yol hərəkəti qaydalarına bələd deyillər. Elə zənn edirlər ki, kiçik həcmlidir deyə, motosikleti harda gəldi, necə gəldi sürmək olar. Bir tərəfdən də sifarişləri tez çatdırmağa, gün ərzində bacardıqca çox sifariş yerinə yetirməyə və daha çox qazanc əldə etməyə çalışırlar, ona görə də tələsirlər, yol hərəkəti qaydalarını pozurlar və qəzalara səbəb olurlar.

**E.Cəfərov motosikletlərin iştirakıyla törədilən qəzaların əsas səbəblərindən birinin qanunvericilikdəki boşluqlar olduğunu dedi:**

- Mühərrik həcmi və sürəti kiçik avtomobil vasitələrinə dövlət nömrə nişanı verilmir və onların qeydiyyatı aparılmır. Sürücülük vəsiqəsi də tələb olunmur. Bu da motosiklet sürücülərinin məsuliyyətdən kənar qalması deməkdir. 40-50 il əvvəlki motosikletlərin mühərrik hıcmi kiçik idi, sürətləri də 60 km.saat-dan yuxarı deyildi. Amma müasir motosikletlərin mühərrik həcmi də artıb, sürətləri də 100 km.saata çatır. Sürətli hərəkət edirlər. Döngələrdə xüsusilə təhlükəli manevrlər edirlər. Ötmə qaydalarını pozurlar. Belə olan halda bu nəqliyyat vəsitəsi də dövlət nömrə nişanı ilə təmin edilməli və qeydiyyata alınmalıdır, sürücülük vəsiqəsinin alınması şərti tətbiq edilməlidir. Bunun üçün də mövcud qanunvericiliyə dəyişiklik edilməlidir. Bir halda ki, mopedlər günün reallığına çevrilib, qanunvericiliyə dəyişiklik etmək vacibdir. Burda çətin nə iş var ki?! Qəzaların qarşısı yalnız bu yolla alına bilər. Başqa cür mümkün olmayacaq. Moped sürücüsü qəza törədir, amma DYP əməkdaşı sürücünü aşkarlamaqda çətinlik çəkir, ya da bu, ümumiyyətlə mümkün olmur. Çünki nömrə yox, heç bir yerdə qeydiyyatdan keçməyib, sığortası da yoxdur. Moped yolda başqa bir avtomobili vurub əzirsə, avtomobil sahibi sığorta haqqından istifadə edə bilmir. Ya da piyadanı vurub yoluna davam edir. Hardan tapacaqlar, kim idi sürücü? Ona görə də hesab edirəm ki, mühərrikli və sürəti 60 km.saatdan yuxarı olan nəqliyyat vasitələri qarşısında tələblər qoyulmalıdır. Mopedlərin dövlət nömrə nişanı ilə təmin edilməsi və qeydiyyata alınması vacibdir. Mopedlər digər nəqliyyat vasitələri ilə eyni hərəkət zolağını paylaşır. Bu halda onların xüsusi səs siqnalı, işıqları olmalıdır. Sürücülərsə mütləq şlem, kaska geyinməlidir. Bu, onların özünün də təhlükəsizliyini təmin edər.

# Moskva heç vaxt Yanukoviçə bel bağlamaz

## Keçmiş prezidentin yenidən hakimiyyətə gətirilməsi xəbəri feykdir



**Rəsmi Kremlin Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviçi Kiyevdə hakimiyyətə gətirmək istədiyi barədə məlumat yayılıb. Bu barədə KİV-ə Ukrayna kəşfiyyatındakı mənbələrdən bildirilib. Qeyd edilib ki, Ukraynada dövlətə xəyanətdə təqsirli bilinən eks-prezident indi Minskdədir.**

O, xüsusi əməliyyata hazırlanır. Xəbərdə vurğulanıb ki, senarilərdən birinə görə, Yanukoviçi Minskdə "Ukrayna prezidenti" elan etməyə çalışacaqlar: "Yaxın vaxtlarda eks-prezident Yanukoviçin Ukraynaya qayıtması və ya onun adından Ukrayna xalqına müraciətin dərci, yaxud aksiyanın hazırlana biləcəyi gözlənilir".

Xatırladaq ki, Yanukoviç 2010-cu ildə prezident seçilib. 2014-cü ildə baş vermiş genişmiqyaslı etiraz aksiyalarından sonra ölkədən qaçaraq Rusiyaya sığınıb. Daha sonra parlament tərəfindən prezidentlik hüququndan məhrum edilib. Digər bir iddia isə Ukraynanı parçalamaq, dənizə çıxışını bağlayaraq iki hissəyə bölmək və paytaxtı Lvov olmaqla ikinci bir "dövlət" qurmaqla bağlıdır. Bunun Moskvanın layihəsi olduğu söylənilir.

**Ukrayna ilə bağlı gündəmə gətirilən senariləri "Şərq"ə**

***"Müharibədə hərbi qələbə Rusiyanın olsa belə, siyasi zəfər Ukraynanın olacaq"***

**təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev hesab edir ki, Yanukoviçin yenidən hakimiyyətə gətirilməsi xəbəri feykdir. Professorun sözlərinə görə, Moskva heç vaxt Yanukoviçə bel bağlamaz:** "Sabiq rəhbər prezident seçilənədək 4 dəfə həbs həyatı yaşayıb. Yanukoviçi ona görə prezident seçmişdilər ki, o, "oğru dünyası"ndan ölkənin mənafeləri naminə istifadə edəcəyinə söz vermişdi. Sonradan məlum oldu ki, bunların hamısı boş söhbətlərdir. Onun yenidən hakimiyyətə gətirilməsi iddiaları məhz Kiyev hökuməti tərəfindən məqsədli şəkildə ortaya atılır. Bununla xalqı öz ətraflarında daha sıx cəm etməyə çalışırlar. Bunun o qədər uğurlu gediş olacağına inanmıram. Ancaq Ukraynanı bölmək siyasəti inandırıcı və realdır. Lvovun ikinci "dövlət"in paytaxtı olması da ağlabatandır. Rusiya ikinci "Ukrayna dövlətini" yaratmaq və öz ərazisi kimi idarə etmək fikrindədir. Lvov kimi bir neçə ərazi, sonradan, 1940-cı ildə Ukrayna ərazisinə qatılıb. Bu bölgədə polyaklar, rumunlar və macarlar yaşayırlar. Əsas problem isə odur ki, Zelenski hakimiyyətinin devrilməsi ehtimalı böyükdür".

**C.Nuriyevə görə, Rusiya müharibədə "sürünən" hərbi taktikaya üstünlük verir:** "Rus qoşunları əvvəlcə hərbi obyektləri aradan götürürlər. Kremlin məqsədi Ukraynanın Azov dənizinə çıxışını bağlamaq idi və buna nail oldular. Azov artıq Rusiyanın "daxili dənizinə" çevrilib. Krımla torpaq ərazisi istəyirdilər, Moriopolun işğalından sonra bu da reallaşacaq. Ruslar Odessanı da ələ keçirməyi planlaşdırır. Odessa çoxmillətli şəhər olduğuna görə ruslar orada ciddi müqavimətə rast gəlməyəcəklərinə əmindir. Həmçinin, Dnepr çayına qədər Ukraynanın məhsuldar torpaqlarını da zəbt etməyi düşünürlər. Rusiya katoliklər olan qərb bölgəsini deyil, daha çox provaslav olan əraziləri işğal etmək niyyətindədir. Moskvanın iştahı böyükdür və onun dişini sındırmağa nə ABŞ-ın, nə də Avropanın gücü çatır. Ancaq müəyyən vaxtdan sonra prosesin yekunlaşması labüddür. Müharibədə hərbi qələbə Rusiyanın olsa belə, siyasi zəfər Ukraynanın olacaq".

**İsmayıl Qocayev**

# Rusiya və Ukraynadan bütün soydaşlarımız dönsə, çətin olacaq

## Təcili olaraq Nazirlər Kabineti yanında "böhran masası" qurulmalıdır

**Rusiya Ukrayna ilə mübaribəyə görə Qərbin sərt sanksiyaları ilə üzləşib. Qərb ölkələri - ABŞ, Avropa İttifaqı Rusiyaya qarşı növbəti sanksiya olaraq Rusiya Mərkəzi Bankının aktivlərini dondurmaq qərarına gəliblər. Baş verən geosiyasi gərginlik maliyyə bazarına da təsir göstərib. Rubl dollar və avroya nisbətdə sürətlə ucuzlaşıb.**



Mərkəzi Bankın valyuta ehtiyatlarına sanksiya qoyulması və onların dondurulması Rusiya üçün böyük zərbədir. Əlbəttə, mövcud hal ruslarla yanaşı, bu ölkədə çalışan azərbaycanlıların da sosial şəraitinin ağırlaşmasına yol aça bilər. Bir sözlə, Rusiyadan ölkəmizə göndərilən maliyyə vəsaitinin həcmi azalar, eləcə də orada çalışan soydaşlarımız ölkəmizə dönər ki, bu da müəyyən çətinliklər yaradar.

**Rusiyada yaşayan azərbaycanlıların taleyi ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli deyib ki, soydaşlarımızın geri dönməsinə Azərbaycan hələ hazır deyil:**

"Ukraynada da 300 minə yaxın soydaşımız yaşayır. Onların təhlükəsizliyinə dair narahatlıq mövcuddur. Bir qismi ölkəmizə qayıda bilər. Söhbət on minlərlə azərbaycanlıdan gedir. Rusiyada təxminən 1,5 - 2 milyon soydaşımız var. Onların ölkəyə göndərdiyi vəsait Azərbaycanın sosial problemlərinin həllində mühüm rol oynayır. Ən maksimal həddə 2012-2013-cü illərdə çatıb. O vaxt az qala ölkəyə 4 milyona yaxın dollar vəsait daxil olurdu. Son zamanlar azalmışdı. Ailələrə ortalama təqribi 1 milyard dollara yaxın vəsait gəlirdi, indi isə kəskin azalacaq".

**Ekspertin sözlərinə görə, rublun dəyərdən düşməsi onların gəlirlərinə də mənfi təsir göstərəcək:**

"İş yerləri qapanır. Soydaşlarımız əsasən xidmət sahəsindəki ticarətdə çalışır. Bu da gələcəkdə həmvətənlərimizin işsiz qalması ilə, ən azından bir qisminin vətənə dönməsiylə nəticələnəcək.

Onsuz da Azərbaycanda işsizlik, orta və kiçik sahibkarlıq üzrə problemlər müşahidə edilir. Normal fəaliyyət üçün qanunların, qaydaların yenilənməsinə ehtiyac duyulur. Bütün məqamlar vətənə qayıdan soydaşlarımızın burda biznes qurmaq imkanlarını məhdudlaşdıran amillərdəndir.

Təcili olaraq Nazirlər Kabineti yanında "böhran masası" qurulmalıdır. Ukraynada, Rusiyada yaşayan soydaşlarımızın problemlərini həlli ilə bağlı kompleks tədbirlər həyata keçirilməlidir".

**Aygün Tahir**



# Qarabağda müharibə zamanında dayandırıldı

## Əməliyyatın miqyası genişlənsəydi əlavə risklər doğurardı

**2022-ci il postsovet məkanı üçün heç də xoş hadisələrlə başlamadı. Qazaxıstan hadisələrindən sonra isə daha dəhşətli senari işə düşdü. Rusiya gözlənildiyi kimi, Ukraynaya qoşun yeridərək təcavüz planını işə saldı.**

Postsovet coğrafiyasının taleyi həmişə qarışıq və faciəli hadisələrlə zəngin olub. Hazırda böyük güclərin savaşından qopan daşlar yenə bu məkan üzərində fırlanır. Ukraynadakı müharibənin bəzi məqamları istər-istəməz ikinci Qarabağ müharibəsi ilə analogiyalar aparmaq zərurətini də ortaya qoyur. Çünki MDB məkanındakı hadisələrin motivi bir-biri ilə oxşarlıq təşkil edir.

***Aqşin Kərimov: "Azərbaycan Xankəndinə qoşun yeritsəydi, Rusiyanın hərbi təzyiqi və Qərbin sanksiyaları ilə üzləşə bilərdi"***

**Siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Azərbaycan Ermənistanla müharibə aparanda onu ən çox Türkiyə dəstəkləyirdi. Ekspertin sözlərinə görə, Qərb ölkələri Ukraynaya göstərdiyi həmrəyliyi Vətən müharibəsində Azərbaycana münasibətdə sərgiləmirdilər, xəsis davranırdılar:** "Azərbaycan-Ermənistan müharibəsinin davam etməsi, bunun miqyasını genişləndirməsə də, əlavə risklər doğurardı. Azərbaycan zamanında, Ermənistandan kapitulyasiyaya dair cədvəl aldıqdan sonra müharibəni dayandırdı və 3 rayon hərbi-siyasi yolla qaytarıldı. İndi ən çox səslənən suallardan biri də budur: "Azərbaycan Xankəndinə niyə girmədi". Birincisi bu sual haqlı ola bilər, amma tələbqarışıq fikir bir qədər yumşaq desək, hərbi-siyasi mövzudakı diletantlıqdan qaynaqlanır. Nəzərə alaq ki, Azərbaycan Xankəndinə girsəydi, orada mülki erməni əhalisi hərbi əməliyyatlar üçün çətinlik yaradacaqdı. Xankəndini azad etmək an məsələsi idi, lakin Azərbaycan bütün halları hesabladı. Əgər Xankəndidə bir erməni mülki sakin müqavimət göstərdikdən sonra adekvat cavab tədbiri nəticəsində həlak olsaydı, Ermənistan həyasız şəkildə küy yaradaraq bunu az qala etnik təmizləmə kimi qələmə verəcəkdi".

**Ekspert vurğulayıb ki, Azərbaycan Xankəndinə qoşun yeritsəydi, Rusiyanın hərbi təzyiqi və Qərbin sanksiyaları ilə üzləşə bilərdi:** "Bakı səmasında partladılan raket isə yəqin böyük dağıntılar törətmək üçün doğru uçurdu. Beləliklə, müharibənin radiusu sərhədləri aşacaqdı və Azərbaycan beynəlxalq risklə üz-üzə qalacaqdı. Hərbi cəhətdən isə, Azərbaycan Rusiya ilə yox, məhz Ermənistanla müharibəyə hazırlaşmışdı. Ancaq Prezident İlham Əliyev zamanında verilən strateji qərarlarla Azərbaycanı təhlükələrdən və geosiyasi kataklizmlərdən sığortaladı. Azərbaycan dövləti postmüharibə dövründə regional və qlobal oyunçularla bərabərhüquqlu münasibətlər quraraq qarşılıqlı öhdəlik sistemini formalaşdıran sənədlərə imza atdı.

Azərbaycan indi Ukraynanın ərazi bütövlüyünə dəstək verir və Ukraynaya humanitar yardımını da əsirgəmir. Azərbaycan özünü siyasi avantüralardan məharətlə kənarda tutan mövqe tutur ki, bu da normaldır".

**İsmayıl Qocayev**

# Rusiyanın "Exo Moskvı" radiostansiyası bağlanır

## Bununla bağlı Baş Prokurorluq da məlumat yayıb

**Rusiyanın müstəqil radiostansiyası "Exo Moskvı" bağlanacağını elan edib.**



"Şərq" "CNN"ə istinadən xəbər verir ki, bu barədə şirkətin saytında məlumat yayılıb: "Exo Moskvı"nın Direktorlar Şurasının səs çoxluğu ilə radiokanalın və internet saytının ləğvi barədə qərar qəbul edilib". Mövzu ilə bağlı ölkənin Baş Prokurorluğu açıqlama verib: "Exo Moskvı" və "TV Rain" telekanalları Donetsk Xalq Respublikası və Luqansk Xalq Respublikasını qorumaq üçün keçirilən xüsusi əməliyyat zamanı rus hərbçiləri ilə bağlı yalan məlumat yayıblar." Baş prokuror həmçinin bildirib ki, hər iki orqan bəyanatda ekstremizmə, Rusiya Federasiyası vətəndaşlarına qarşı zorakılığa, ictimai asayişin və ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulmasına çağırışlar edən məlumatlar yerləşdirib.

Qeyd edək ki, şimal qonşumuzda hakimiyyət orqanları icazəsiz mitinq keçirməyi və bu haqda məlumat yayımlanmasını qadağan edir.

**Cəmilə**

# "Hər ötən gün Rusiyanın işini çətinləşdirir"

## Türkiyəli general: "Putinin danışıqlara hazır olmasını deməsi çarəsizliyin göstəricisidir"



**Rusiya ilə Ukrayna arasında atəşkəsin elan olunması üçün hər gün bəlkə də milyonlarla dua edilir. Evlərindən didərgin salınanlar, yaxınlarını itirənlər Yaradana sığınırlar Savaş isə hələ də bitməyib. Və görünür, hərbi əməliyyatlar yaxın günlərdə dayanmayacaq. Çünki tərəflər arasında keçirilən görüş də uğursuz oldu. Deməli, bu artıq ölüm-qalım savaşıdır. Bu, haqla nahaqın, işğala məruz qalanla təcavüzkarın mübarizəsidir.**

Ukrayna Müdafiə naziri Oliksey Reznikov nikbin danışır, qarşı tərəfin demorilizə olunduğunu deyir. Rus qoşunları isə artıq paytaxt Kiyevdədir. Növbəti hədəfin isə Zelenskinin iqamətgahının olması qətiyyən istisna deyil

Belə bir vəziyyətdə proseslərin görünməyən tərəflərini Türkiyənin Azərbaycandakı keçmiş hərbi ateşesi, general Yücel Karauzla müzakirə etdik:

**- Necə düşünürsünüz, Ukraynanın NATO-ya üzvlük iddiası müharibənin başlanması üçün səbəb idi, yoxsa bəhanə?**

- Hadisələr 1991-ci ildə SSRİ-nin dağılmasından sonra başlandı. 1999 və 2004-cü illərdə NATO genişləndi. Getdikcə Kreml bunu özünə təhdid kimi gördü. Ümumiyyətlə, Ukrayna strateji əhəmiyyətə malik ölkədir. Həmişə deyirlər ki, Ukraynaya sahib olan dünyaya nəzarət edə bilər. Bu mənada işğal Rusiya üçün xüsusi əhəmiyyətli idi və savaş gözlənilirdi. Rusiya yaxşı hazırlaşdı və dörd cəbhədən hücuma keçdi. Amma proseslər onların gözlədiyi kimi inkişaf etmədi.

**- Nə üçün?**

- Dediyim kimi, NATO-nun genişlənməsi Kremli narahat edirdi. Belə bir addımı atmalı idi. Amma ağıllı və cəld davranmalı idi. Bunu bacarmadı. Ona görə də hər ötən gün işi çətinləşir. Putinin danışıqlara hazır olduğunu deməsi də əslində çarəsizliyin göstəricisidir. Əgər "neofaşist" adlandırdığın tərəflə müharibənin beşinci günündə danışıqlar aparırsansa, deməli, nə isə doğru deyil. Zaman Rusiyanın əleyhinə, Ukraynanın xeyrinə işləyir. Hərbin qaydası var: müharibəyə başlamazdan əvvəl öz imkanını, düşmənin gücünü, ərazini, hava sahəsini və beynəlxalq ictimaiyyətin rəyini təhlil etməlisən. Bu, çox vacibdir. Əks halda qazanc məqsədilə başlatdığın müharibə sənə baha başa gələ bilər. Görünür, Rusiyanın hesablamaları dəqiq olmayıb. Həmçinin texnikası da köhnədir. Rusiya Ukraynanın, Qərbin gücünü ciddi qəbul etmədi. Elə bildi ki, Qərb Cənubi Osetiya, Abxaziya, Krım məsələlərində olduğu kimi, yenə də səssiz qalacaq. Bu, Moskvanın strateji səhvi oldu. Rusiya ilk dəfə uğursuzluğa düçar olmaq riski ilə müharibəyə girib. Hətta hərbi sahədə uğur qazansa da, Ukrayna bəzi torpaqlarını itirsə də, müharibənin məğlubu məhz Rusiyadır. Fikrimcə, müharibədən sonra Rusiya generalitetində ciddi dəyişikliklərin şahidi ola bilərik. Hətta Müdafiə naziri Sergey Şoyqu da istefaya göndərilə bilər. Həm də Kreml beynəlxalq hüquqa zidd davranır. Avropanın tətbiq etdiyi sanksiyalar isə dövləti daha zəiflədir. Biz İkinci Qarabağ müharibəsində də gördük ki, işğalçılar mütləq nə vaxtsa uduzurlar, tutduqları torpaqlardan çıxırlar. Kiyevin işğalı asan məsələ deyil. Hər iki tərəf qarşısına qoyduğu hərbi və siyasi hədəfdən çox uzaqdır. Bu mənada, yəqin ki, danışıqlar hələ bir müddət davam edəcək. Rusiya Prezidenti Vladimir Putinin irəli sürdüyü şərtlər, əlbəttə, qəbuledilməzdir.

### "Əgər "neofaşist" adlandırdığın tərəflə müharibənin beşinci günündə danışıqlar aparırsansa, deməli, nə isə doğru deyil"

**- NATO baş katibi Yens Stoltenberq Ukraynaya qoşun göndərməyəcəyini deyib. Bu, nə ilə bağlıdır?**

- Əslində Ukraynaya silah göndərən bütün dövlətlər, o cümlədən Almaniya NATO ölkəsidir. Yəni Alyans bu işdə iştirak edir. Amma indi NATO Ukrayna sərhədlərinə birbaşa öz adı ilə daxil ola bilməz. Çünki Ukrayna həmin qurumun üzvü deyil. Odur ki, NATO üzv dövlətlərin əli ilə bu yardımı edir. NATO-nun proseslərdə rolu Kiyevin bacarıqsızlığı kimi qiymətləndirilməməlidir. Prezident Volodimir Zelenskinin taktikası aydındır: Kremli dünyadan təcrid etmək, onun əleyhinə koalisiya yaratmaq. Dövlət başçısının Rusiyanın ünvanına səsləndirdiyi "Belə bir dövlət necə BMT Təhlükəsizlik Şurasının üzvü ola bilər?" fikri bu baxımdan dəyərləndirilməlidir. Əlbəttə, Zelenskiyə də bunu danışdıran Qərbdir. Ümumiyyətlə, proseslər belə davam etsə, BMT Təhlükəsizlik Şurası yenidən formalaşa bilər.

**- Putin bir neçə gün əvvəl nüvə silahlarının hazır vəziyyətə gətirilməsi barədə müdafiə nazirinə tapşırıq vermişdi...**

- Amma bu, daha çox psixoloji manevrdir. Nüvə silahına əl atmaq heç də hər kəsin işi deyil. Çünki bu, öz regionunu da təhlükə altına atmaq deməkdir. Dünyada doqquz ölkənin nüvə silahı var. Onlardan biri barmağını "qırmızı düymə"yə toxundurduqları an planet daş dövrünə, ya da başqa bir mərhələyə qayıda bilər.

**- Niyə Qərbin Qarabağ və Donbass məsələsinə münasibəti eyni olmadı?**

- Dediyiniz kimi, son 50 ildə Qərbin bu qədər tez reaksiya verdiyi ikinci hadisə yoxdur. Bunun bir neçə səbəbi var. Ən başlıcası isə din, yəni xristianlıq amilidir. Qarabağ həqiqətlərinə, Xocalı faciəsinə etinasız yanaşan Qərbin indi Ukraynaya hər cür dəstək verməsi ikili standartların ən bariz nümunəsidir.

**- Türkiyənin mövqeyini necə qiymətləndirirsiniz?**

- Türkiyə tərəfsizdir. Ankaranın həm Moskva, həm də Kiyevlə strateji əlaqələri var. Biz beynəlxalq hüququn tələblərinə uyğun olaraq hər bir ölkənin, o cümlədən Ukraynanın ərazi bütövlüyünə hörmət edirik. Qarabağ savaşında olduğu kimi, indi də Türkiyə işğalın əleyhinədir. Müharibədən əvvəl Azərbaycan da, Türkiyə də dəfələrlə vasitəçilik təklifi etdi. Hər iki ölkə indi də danışıqlara ev sahibliyi etməyə hazırdır.

**- Bu böhran, sizcə, Cənubi Qafqaza necə təsir edəcək?**

- Rusiyanın imicinə ziddi zərbə dəydi. Putin Qərbpərəst ölkələrə dərs vermək istəsə də, bu, alınmadı. Moskvanın ehtimal edilən uğursuzluğu Qərbi və Qərbpərəst ölkələri cəsarətləndirəcək. Həmçinin Gürcüstanın da gələcəkdə Abxaziya, Osetiyanı azad etmək uğrunda hərəkətə keçməsi mümkündür. Kreml qalib gələcəyi təqdirdə isə qərarlarını Putinin reaksiyasına görə müəyyənləşdirən liderlərin sayı artacaq.

**- Necə düşünürsünüz, Azərbaycan bu gərginlikdən istifadə edərək Qarabağda yarımçıq qalmış işini tamamlaya bilər?**

- Dövlətlər hisslərlə yox, ağılla idarə olunur. Məncə, soyuqqanlı davranmaq və daha münasib vaxtı gözləmək lazımdır.

**Kənan Novruzov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz azadlığı, plüralizmin inkişaf etdirilməsi

# Bizim əsas silahımız dildir

### "Media quruluşlarına işə qəbulda əsas şərt dil bilgisi olmalıdır"





**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi tərəfindən "Televiziyaların dili monitorinq aynasında" adlı tədbir keçirilib.**

12 televiziya kanalında aparılmış monitorinqin nəticələrinin ictimaiyyətə açıqlanması məqsədilə keçirilən tədbirdə mərkəzin əməkdaşları, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvləri, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı alimləri, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Audiovizual Şuranın aparat rəhbəri Fazil Novruzov, dövlət qurumlarının əməkdaşları, televiziya kanallarının rəhbər və məsul şəxsləri, tanınmış aparıcılar və digər fəxri qonaqlar iştirak edib. Mərkəzin direktoru, professor Sevinc Əliyeva bildirib ki, dövlət dilinin tətbiqinə nəzarət, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasının təmin olunması əsas fəaliyyət istiqamətləri kimi qurumun Nizamnaməsində öz əksini tapıb: "Mərkəz tərəfindən aparıcıların və müxbirlərin nitqi monitorinqə cəlb edilib və televiziyaların dilinin praktik vəziyyətini əks etdirən 4800 dil faktı "Televiziyaların dili monitorinq aynasında" adlı kitabda öz əksini tapıb. Bəzi aparıcıların televiziyaya "fərdi" üslub gətirmək cəhdi, alınma sözlərdən yersiz istifadə, yad intonasiyanın tətbiqi, dilimizə xas olmayan cümlə tipləri kimi xarakterik nöqsanlar mövcuddur". Sevinc Əliyeva bildirib ki, bu monitorinqlərin aparılmasında məqsəd yalnız qüsurların müəyyən edilməsi deyil, həm də onların aradan qaldırılmasıdır. Tədbirdə radioların monitorinqinin başa çatması və hazırda gündəlik qəzetlərin monitorinqinin aparılması barədə də məlumat verilib. Cərimələrlə bağlı suallara da aydınlıq gətirən Mərkəzin direktoru qeyd edib ki, aparılan monitorinqlərin nəticələri ilə bağlı müvafiq qurumlara xəbərdarlıq etdikdən sonra eyni xətalara təkrar yol verilərsə, cərimələrin tətbiqi qaçılmaz olacaq. "Televiziyaların dili monitorinq aynasında" adlı məruzə ilə çıxış edən Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktor müavini Gülarə Əmirova televiziya kanallarında aparılan monitorinqin nəticələri ilə bağlı statistik məlumatı tədbir iştirakçılarının nəzərinə çatdırıb. G.Əmirova bildirib ki, qeydə alınan 6000 dil qüsuru faktından 4753-ü hesabata daxil edilib. Onun sözlərinə görə, onlardan 1017-si orfoepik, 233-ü orfoqrafik, 1346-sı leksik, 651-i qrammatik, 1506-sı isə üslub və ifadə səhvidir.

Digər çıxışlarda Azərbaycan dili ahəngliliyi və nizamlılığı baxımından dünya dilləri içərisində özünəməxsus dil kimi səciyyələndirilib, milli varlığımız və kimliyimizin göstəricisi olan ana dilinin saflığının qorunması istiqamətində Mərkəzin fəaliyyəti yüksək qiymətləndirilib, Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvləri, görkəmli dilçi alimlər və ziyalıların, media nümayəndələrinin yaxından iştirak etdiyi müzakirədə kütləvi informasiya vasitələrində yazılı və şifahi nitqdə yol verilən nöqsanların aradan qaldırılması ilə bağlı tövsiyə və təkliflər səsləndirilib.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi KİV-də aşkarlanan qüsurlara görə kimlərin cərimələnəcəyini açıqlayıb. Mərkəzin direktoru Sevinc Əliyeva bildirib ki, nitqdə səhvlər olduğu halda bir neçə dəfə xəbərdarlıq olunacaq: "Məqsədimiz cərimələmək deyil. Aparılan monitorinqlərin nəticələri ilə bağlı müvafiq qurumlara xəbərdarlıq edildikdən sonra eyni xətalara təkrar yol verilərsə, cərimələrin tətbiqi qaçılmaz olacaq. Dil qüsurları davam edərsə, cərimə aparıcılara, jurnalistlərə tətbiq olunmayacaq. Həmin şəxslərin çalışdığı qurum cərimələnəcək". S.Əliyeva qeyd edib ki, saytlarda aparılan monitorinqlərin nəticələrinə görə, vəziyyət elə də qənaətbəxş deyil: "Bizi narahat edən məsələ dil normaları dediyimiz orfoqrafik və orfoepik qaydalardan çox leksik və sintaktik normaların pozulmasıdır ki, bu artıq çox ciddi məsələdir". Qeyd edək ki, kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək. S.Əliyeva həmçinin bildirib ki, radioların monitorinqi başa çatıb və hazırda gündəlik qəzetlərin monitorinqi aparılır.

**Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında dil qüsurlarının aradan qaldırılmasına necə nail olunacağından danışdı:**

***Qulu Məhərrəmli: "Yoxsa təsadüfi adamlar efirə çıxarılır, məlum olur ki, aparıcı, diktor dil qaydalarını bilmir, sözlərdən düzgün, yerli-yerində istifadə etməyi bacarmır, bəlkə heç 1 kitab da oxumayıb"***

- Mürəkkəb məsələlərin çox sadə həlli var. O cümlədən ana dilimizlə də bağlı qüsurların aradan qaldırılması mümkündür. Bu, sadə bir prinsipə dayanır; mediada çalışanlar ana dilini yaxşı bilməlidir və Azərbaycan dilinin ədəbi qaydalarını da mükəmməl bilməlidirlər. Yoxsa təsadüfi adamlar efirə çıxarılır, məlum olur ki, aparıcı, diktor dil qaydalarını bilmir, sözlərdən düzgün, yerli-yerində istifadə etməyi bacarmır, bəlkə heç 1 kitab da oxumayıb. Ədəbi dil qaydalarına riayət edilməsi tələbi sərtləşdirilməlidir, media quruluşlarına işə qəbulda əsas şərt dil bilgisi olmalıdır. Çünki bizim əsas silahımız dildir. İkinci şərt isə redaktorluq işiylə bağlıdır. Görünən budur ki, efirə verilən, saytlarda, çap mediasında dərc olunan materiallar yaxşı oxunmur. Bir saytın səhv üslubda, dil qüsurları, yazı xətaları ilə çap edilmiş materialı digər saytlar tərəfindən də olduğu kimi - səhv formada tirajlanır. Oxucuda yanlış təsəvvürlərin formalaşmasına səbəb olur ki, yəqin bu söz, ifadə belə yazılmalıdır, teleaparıcı bu sözü belə işlədirsə, deməli, belə deyilməlidir. Mənə səhvləri çoxdur, şifahi nitqdə vurğu səhvləri, xüsusi adların yazılmasında nöqsanlar var. Vahid qaydalar olmalıdır və kütləvi informasiya vasitələrinin hər bir subyekti bu qaydalara əməl etməlidir. Elmi Mərkəzlər var, Monitorinq Mərkəzi fəaliyyət göstərir. Amma önəmli olan nəticədir. Nəticə də peşəkarlıqdan və qaydalara əməl edilməsinin istisnasız hamıdan eyni qaydada tələb olunmasından asılıdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## "Ukraynaya çatanda Peqovun kanalı bloklanır"

### Əflatun Amaşov sual edir ki, niyə Qarabağ savaşında eyni addım atılmadı



**"Ukrayna barədə təxribatçı yayımlarına görə Semyon Peqovun "WarGonzo" kanalı bloklanıb. Bəli, erməni media maqnat Aram Qabrelyanovun himayəsi altında fəaliyyət göstərən Semyon Peqov həqiqətən də təxribatla məşğuldur".**

"Şərq" xəbər verir ki, bu barədə Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib. MŞ rəhbəri bildirib ki, biz Peqovu İkinci Qarabağ müharibəsi dönəmində də görmüşdük: "Məsələ ilə bağlı müraciətlər yayımlamışdıq, çağırışlar etmişdik. Hətta Azərbaycan dövləti tərəfindən Peqova qarşı Azərbaycanda müvafiq maddələrlə cinayət işi də başlanıldı. Təəssüf ki, diqqət yetirən olmadı. Amma baxın ki, Ukraynaya çatanda Peqovun kanalı bloklanır. Burada ikili yanaşmanın olduğu göz önündədir. "WarGonzo" Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarında destruktiv media fəaliyyəti ilə məşğul olduğu nəzərə alınmamışdı. İndi isə konkret qərar verilir və kanal barədə mümkün olan ən yüksək cəza tədbiri görülür. Sual olunur, nə üçün Qarabağ müharibəsi zamanı eyni addım atılmadı? Əslində sual ritorikdir. Cavab gözləmirəm. Çünki heç bir cavab haqqında söz açdığım ikili yanaşmanın olmadığını, ayrıseçkiliyin qoyulmadığını bildirə bilməyəcək. Hər şey gün kimi aydındır".

**İsmayıl**

## Təhsilin İnkişaf Fondu yaradıldı

### Yeni qurum tələbələrə və təhsilə böyük dəstək olacaq





**Təhsil Nazirliyinin tabeliyində "Təhsilin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılıb.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Nazirlər Kabineti "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda da dəyişiklik edib.

Dəyişikliyə görə, Təhsilin İnkişafı Fondu Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısına daxil edilib.

**Təhsil üzrə ekspert Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd edib ki, ölkə başçısının yeni imzaladığı sərəncama görə, hər il 400 vətəndaşımızın 2022-2026-cı il dövlət proqramı çərçivəsində xaricdə təhsil almağa göndəriləməlidir:** "Qurumun yaranmasının xidmət etdiyi aspektlərdən biri də həmin şəxslərin maliyyələşməsinin həyata keçirilməsidir. Yəni dövlət büdcəsi hesabına baş tutacaq. Bundan başqa, Təhsilin İnkişaf Fondu təkcə həmin tələbələri deyil, həmçinin ölkədə təhsillə bağlı layihələrin reallaşmasını dəstəkləyəcək. Eyni zamanda status daşıyan vətəndaşların təhsil haqlarının müəyyən qədər ödənilməsinə yardım edəcək. Bu da ümumilikdə onu deməyə əsas verir ki, ən azı bu qurumun yaranması təhsilə ümumi dəstək vermiş olacaq. Bildiyimiz kimi, maddi cəhətdən imkansız olan tələbələrlə bağlı Təhsil Tələbə Kredit Fondu təsis edilib. Hazırda "Təhsilin İnkişaf Fondu" da müəyyən qədər bu işlərin görülməsinə öz dəstəyini əsirgəməyəcək".

Ekspert əlavə edib ki, prioritet istiqamət kimi təhsil müəssisələrinin müasir dövrün tələblərinə uyğunlaşması əsas götürüləcək: "Fondun büdcəsinin formalaşması daha çox təhsil müəssisələrinin əldə etdikləri gəlirlər, ianələr, müxtəlif qrant layihələr hesabına reallaşacaq".

**Sücayət Mehti**

# "Mən vətəndaş, döyüşçü kimi düşünürəm..."

### İlham Tumas: "Ermənistanla sülh bağlamaq su üstündə yazı yazmağa bərabərdir"

**Ermənistan silahlı qüvvələrinin təxribatları davam edir. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, qarşı tərəf martın 2-si saat 20:50-dən 21:16-dək dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi və Əsrik Cırdaxan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.**

Ordumuzun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur. Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.



Qeyd edək ki, eyni zamanda ötən gün N.Paşinyan "Ermənistanın diplomatiya günü"nə həsr olunmuş tədbirdə çıxışı zamanı Azərbaycanla sülh sazişinin imzalanacağını bəyan edib. "Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası, həmçinin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələləri var".

**Ermənistan tərəfinin törətdiyi təxribatların səbəb və nəticələri, eləcə də yekun sülh sazişi barədə "Şərq"ə danışan ehtiyatda olan hərbi jurnalist, Qarabağ qazisi İlham Tumas bildirib ki, bu müqavilə effektiv olmaya bilər:** "Ermənistanla sülh bağlamaq su üstündə yazı yazmağa bərabərdir. Bunu dəfələrlə görmüşük. 20-ci əsrdə erməni-müsəlman müharibəsində də şahidi olmuşuq. Sonuncu dəfə də gördük. Yenə də deyirəm, o dövlət terrorçu bir dövlət olduğuna görə, onlarla sülh imzalamaq, hansısa razılığa gəlmək yalnız kağız üstündə mümkündür. Amma imkan düşən kimi Ermənistan zərbə endirməyə hazır bir dövlətdir. Baxın, indiki təxribat da fikirlərimizin sübutu hesab oluna bilər".

Dünyada baş verən son hadisələrin bu məsələyə təsirindən danışan İ.Tumas hesab edir ki, bu saziş uğurlu addım deyil: "Ukraynada baş verənlərin fonunda bəziləri deyir ki, Rusiya məğlub olsa, Ermənistan geri çəkiləcək. Təbii ki, bunlar proqnozlardır. Mən bunları düşünmürəm. Amma hər halda, indiki məqamda sülh müqaviləsinin uğurlu bir gediş olacağını düşünmürəm. Bir vətəndaş kimi, döyüşçü kimi fikirləşirəm ki, Ermənistanla sülh müqaviləsi imzalamaq mənasız bir işdir və heç nəyə kömək olmayacaq".

**Çimnaz Şahlar**

# Rusiyanın addımları sual doğurur

### KTMT-nin hər hansı formada Ukraynada mövcudluğu real görünmür

**Rusiya Prezidenti Vladimir Putin Dövlət Dumasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülhməramlılıq fəaliyyəti barədə sazişə dəyişiklik edilməsi haqqında protokolu ratifikasiya üçün təqdim edib.**

Sənəd Dumanın elektron bazasında yerləşdirilib.

Qeyd olunur ki, protokol BMT-nin himayəsi ilə keçirilən əməliyyatlarda iştirak edəcək sülhməramlı qüvvələri formlaşdıran "əlaqələndirici dövlət" anlayışının tətbiqini nəzərdə tutur.

"Protokol "əlaqələndirici dövlət" anlayışının tətbiqini və bu dövlətin himayəsində BMT-nin sülhməramlı əməliyyatlarında iştirak edəcək KTMT-nin kollektiv sülhməramlı qüvvələrinin formalaşdırılmasını nəzərdə tutur" - sənəddə deyilir.

Qeyd edək ki, protokol 16 sentyabr 2021-ci ildə Düşənbədə imzalanıb.

Ukrayna ilə müharibə şəraitində olduğu dövrdə Rusiyanın bu addımı atmasının səbəbi nədir?

**Bu barədə "Şərq"ə açıqlama verən politoloq Tural İsmayılov bildirib ki, Rusiya siyasi arenasında uzun müddətdir KTMT-nin sülhməramlı fəaliyyətində dəyişikliklər edilməsi gözlənilirdi:**



"Daha əvvəl Qazaxıstan hadisələri fonunda təşkilatın silahlı qüvvələrinin bu ölkəyə daxil olması ciddi müzakirələrə səbəb olmuşdu. Çünki KTMT-nin sülhməramlı fəaliyyəti ilə bağlı məsələlərə aydınlıq gətirilməmişdi. Boşluqların olduğu ortaya çıxmışdı.

İndiki dövrdə verilən bu qərar boşluqların aradan qaldırılması hesablanıb. Eyni zamanda gələcəkdə KTMT-nin hər hansı ölkə ərazisində sülhməramlı kimi fəaliyyətini daha qanuni formada təqdim edə bilmək üçün həmin dəyişikliklər edildi.

Müharibədən sonrakı dövrdə Ukrayna ilə Rusiya arasındakı münasibətlərin hansı səviyyədə olacağı indidən proqnozlaşdırılmır. Əgər yenidən qondarma Donetsk və Luqansk respublikaları öz mövcudluqlarını saxlasalar Rusiya həmin separatçı bölgələrə KTMT sülhməramlılarını daxil edə bilər. Lakin bu da bir qədər sual doğurur. Çünki Qazaxıstan bu məsələdə böyük ehtimalla neytral qalacaq.

Yəqin ki, təşkilatın digər üzvləri də Ukrayna ərazisinə ordu çıxarılmasına razı olmayacaq. Ancaq Ukraynada hakimiyyət dəyişikliyi olarsa, rusiyayönümlü şəxslər başa keçərsə, gələcəkdə bu ölkədə həmin sülhməramlıların yerləşdirilməsi müzakirə oluna bilər. Ancaq hazırkı dövrdə və yaxın gələcəkdə KTMT-nin hər hansı formada Ukraynada mövcud olacağını düşünmürəm".

**Sənan İsmayıl**

# Rusiyada dollar qıtlığı yaranıb

## Azərbaycan Mərkəzi Bankının da qabaqlayıcı tədbirlər görməsi vacibdir



**"Qərbin sanksiyalarından sonra rəsmi Moskva bütün vasitələrlə ölkədən valyuta axınının qarşısını almağa çalışır". Bu barədə "Şərq"ə millət vəkili Vüqar Bayramov deyib.**

Deputat bildirib ki, bununla belə Moskva birjasının artıq 4-cü gündür bağlı qalması Rusiya Mərkəzi Bankının sanksiyaların təsirlərinin azaldılması üçün həlalik strategiyasını tam müəyyənləşdirmədiyindən xəbər verir: "Moskva birjanın fəaliyyətinin bərpasının rublun rəsmi məzənnəsinin daha da ucuzlaşmasına və səhm bazarında ciddi silkələnməsinə səbəb olacağından ehtiyatlanır. Reallıqda isə rəsmi məzənnəyə rəğmən rublun "qara bazar"da daha çox dəyərsizləşməsi müşahidə olunur. Müharibə davam edəcəyi halda rubl daha da ucuzlaşacaq. Bu gün "Reuters" agentliyi

*"Regiondakı son dəyişikliklər fonunda xarici valyutanın ölkədən axınına imkan verilməməsi daha da aktuallaşıb"*

Rusiya Mərkəzi Bankının xarici valyuta alışına 30 faizlik komissiya haqqı tətbiq etməsi barədə xəbər yayıb. Agentlik requlatorun banklara bu barədə məktub göndərdiyini bildirib. Bununla, Mərkəzi Bank Rusiyada dollara olan tələbi müəyyən qədər azaltmağa çalışsa da, digər tərəfdən artıq "qara bazar"da rubl xarici valyutalara qarşı daha da ucuzlaşır. Dünəndən isə Rusiyada nağd formada 10 min dollardan artıq valyuta çıxarmaq qadağan edilib. Sanksiyaların güclənəcəyi halda bu rəqəm daha da kiçilə bilər. Görünən odur ki, Rusiya hökuməti indiki halda inzibati metodlar ilə ölkədən valyuta çıxışını minimumlaşdırmağa çalışır".

**Parlament üzvünün sözlərinə görə, Rusiyada müşahidə edilən valyuta qıtlığı və dollara artan tələb fonunda Azərbaycan Mərkəzi Bankının da qabaqlayıcı tədbirlər görməsi vacibdir:** "3 milyard dollara yaxın xarici ticarət dövriyyəmiz olan Rusiyaya illik ixracatımız 800 milyon dollardır. Əvvəlki illərdə fermerlər və eləcə də bir sıra sahibkarlar rubl ilə ödənişlərə üstünlük verirdilər. Daha sonra o vəsaitləri dollara konvertasiya edirdilər. Rusiyada dollar qıtlığının dərinləşməsi riskləri yüksək olduğu üçün Mərkəzi Bank requlativ mövqeyindən istifadə edərək ölkədən dollar çıxışının optimallaşdırılmasını daha da tənzimləməlidir. Neftin qiymətinin yüksək olması ölkəyə daha çox dolların daxil olmasına imkan yaratsa belə regiondakı son dəyişikliklər fonunda xarici valyutanın ölkədən axınına imkan verilməməsi daha da aktuallaşıb".

**İsmayıl Qocayev**

**Elan**

Bu elanla "Şamaxı-Nəqliyyat" ASC (bundan sonra - cəmiyyət), öz səhmdarlarını 19 aprel 2022-ci il saat 15.00-da keçiriləcək növbəti ümumi yığıncağa dəvət edir.

**Ümumi yığıncağın gündəliyi:**

1. "Şamaxı Nəqliyyat" Açıq Səhmdar Cəmiyyətində direktor vəzifəsi vakant olduğundan həmin vəzifəyə direktor təyin olunması.
2. Şamaxı Nəqliyyat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnamə layihəsinin 2-ci redaksiyada müzakirə edilməsi və təsdiq edilməsi.
3. Şamaxı Nəqliyyat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 2-ci redaksiyasında dövlət qeydiyyatına alınması üçün ərizə ilə müraciət edilməsi və cəmiyyəti dövlət qeydiyyatı orqanlarında təmsil edəcək nümayəndənin təyin edilməsi.

2022-ci il aprelin 4-dən etibarən səhmdarların ümumi yığıncağında iştirak etmək hüququna malik olan şəxslər ümumi yığıncağın gündəliyi üzrə əlavə məlumatlarla (materiallarla) Şamaxı şəhəri, B.Əzizov küçəsi, № 8 ünvanında tanış ola bilərlər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Talışxanov Mirədalət Vasif oğlunun adına verilmiş Vəkillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Dünyada hər üç qadından biri əzab çəkir

## Könül Nurullayeva: "Məişət zorakılığının qurbanı olan qadınların cəmiyyətə yenidən qazandırılması vacibdir"



**Son zamanlar istər seçicilərdən, istərsə də mediadan məişət zorakılığı zəminində baş verən çoxsaylı hadisələr barədə məlumatlar alırıq. Statistik rəqəmlərə diqqət yetirsək, bu rəqəmlərin mövcud reallığı tam əks etdirmədiyini dərhal hiss edərik.**

Daha çox qadınlara və uşaqlara münasibətdə törədilən bu hallar adətən gizli qalır". Milli Məclisin deputatı Könül Nurullayeva Parlamentdə "Ailə qanunvericiliyi: ənənəvilik və müasirlik" mövzusunda keçirilən ictimai dinləmələrdə çıxışı zamanı belə deyib. Xanım parlamentari bildirib ki, əksər hallarda ailə üzvündən harasa şikayət etməyi qeyri-etik, qeyri-əxlaqi bir addım hesab edib, cəmiyyətin qınağından ehtiyatlanır.

Onun sözlərinə görə, gender əsaslı zorakılıqdan dünyada hər üç qadından biri əzab çəkir. Bu səbəbdən zorakılığın qarşısının alınmasına geniş müstəvidə diqqət ayrılmalıdır.

*Deputat hesab edir ki, mövcud problemlərlə mübarizədə müdafiə mexanizmləri ilə yanaşı, qanunvericilik sahəsində də təkmilləşdirmə işlərinin aparılması vacibdir:* "Qanunda nəzərdə tutulan qısa (1 ay) və uzunmüddətli mühafizə orderlərinin (6 ay) verilməsində, onların icrasında da ciddi pozuntular olduğu danılmazdır. Mühafizə orderlərinin vaxtının düzgün müəyyənləşdirilməsi, bu sahədə sistemli və operativ yanaşmanın olması, həmin şəxslərə hüquqi-psixoloji dəstəyin davamlılığı, məşğulluq problemlərinin həlli, övladlarının təhsildən yayınma hallarının qarşısının alınması üçün konkret addımların atılması olduqca önəmlidir. Əks halda, şəxs şikayətdən imtina etməsi üçün yenidən zorakılıq halları ilə üzləşə bilər.

Şiddətə məruz qalan hər bir qadına nəzarət gücləndirilməli, bu məsələnin həllində effektiv tədbirlər görülməli, hər bir zorakılıq faktı baş verən zaman polis dərhal səhiyyə işçilərini məlumatlandırmalı, belə şəxslərə psixoloji dəstək göstərilməsi təmin edilməli, şiddətin mövcud olacağı hər bir mühitdən qadınlar, xüsusən də uşaqlar dərhal uzaqlaşdırılmalıdır.

Məişət zorakılığının zərər çəkən şəxsin - adətən qadınların ruhi, fiziki və reproduktiv sağlamlıqlarına mənfi zərərləri nəticəsində onların sosial bir fərd kimi cəmiyyətdə iştirakının qarşısı alınır, cəmiyyətdən təcrid olunur, özgüvənlə bağlı ciddi problemlər yaşanır, onlar üçün iş və ailə həyatında maneələr yaradılır. Belə qadınların cəmiyyətə yenidən qazandırılmasını təmin etmək, onların həyatlarını normallaşdırmağa çalışmaq çox vacibdir".

K.Nurullayeva İngiltərənin "Birmingham" Universiteti tərəfindən aparılan araşdırmaları xatırladıb, bildirib ki, bu araşdırmaların nəticələrinə görə, ailədaxili zorakılığa məruz qalan qadınlarda ciddi psixoloji xəstəliklərin yaranması riskinin 3 dəfə çox olduğunu aşkara çıxarıb.

Millət vəkili təklif edir ki, bu sahədə qanunvericilik bir qədər də təkmilləşdirilməli, hüquq-mühafizə orqanları, təhsil, səhiyyə, sosial müdafiə və digər qurumlarla birlikdə məişət zorakılığına məruz qalan şəxslərə ciddi, effektiv dəstək göstərilməsi məqsədilə qərargah yaradılmalı, sözügedən qurumlar birgə kompleks tədbirlər həyata keçirməli, həmin şəxsləri zaman itirmədən cəmiyyətə qazandırmaq üçün hər iki tərəflə planlı və məqsədyönlü işlər görülməlidir.

**Aygün**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Aygün Kazımova yeni imicdə fotolarını yayıb



**Xalq artisti Aygün Kazımova saç düzümündə dəyişiklik edib.**

"Şərq" xəbər verir ki, müğənni dərin sinə dekoltedə yeni fotolarını instaqram səhifəsində izləyiciləri ilə bölüşüb. Xalq artistinin yeni imici istifadəçilərin diqqətini çəkib. İfaçının fotolarını türkiyəli fotoqraf Mustafa Sarıkaya çəkib.

## Nura kişilərdən çiçək gözləyir

"Heç kim məni şablon mesajlarla təbrik etməsin"



**"Qarşıdan gələn 8 Mart və Novruz Bayramı münasibəti ilə məni heç bir ümumi təbriklərə, şəkillərə tağ etməyin".**

"Şərq"in məlumatına görə, bu sözləri müğənni Nura Suri innstaqram səhifəsində yazıb.

İfaçı bayramlarda yazılan şablon ismarıclara üsyan edib: "WhatsApp"a hamıya yazdığınız təbriklərdən göndərməyin.

8 Mart Günü qadınlar bir-birilərinə təbrik mesajları yazmasın. Kişilər isə 1 buket gül belə qıymırsa, adi mesajla şəxsən məni təbrik etməsin. Heç kəsdən inciməyəcəm. Spam mesajları özünüzə saxlayın, xonça şəkillərini də. Anlayış üçün təşəkkür!".

## Elşad Xose musiqiyə ara verib

Reper "Youtube" platforması üçün hazırlanan verilişdə aparıcılıq edəcək



**"Yaradıcılıqla məşğulam, yeni mahnılar yazıram. Lakin bir az musiqidən kənar çəkilmişəm. "Youtube" platforması üçün yeni veriliş hazırlanır. Aparıcı özüməm".**

"Şərq"in məlumatına görə, bu sözləri "ŞouRuma" açıqlamasında reper Elşad Xose deyib.

O, yeni verilişindən bəhs edib: "Çox güman ki, senzura olan variantı televiziyada da yayımlanacaq. Verilişin adı "Xosun-vay" olacaq. İlk qonağım isə məşhur Sakit Məmmədovun oğlu rəssam Nizar Məmmədovdur".

**Hazırladı: Aygün**

## Göyçayda 21 yaşlı qızı oğurlayan şəxs həbs olundu



**Məhkəmə Göyçayda 21 yaşlı qızı oğurlayan ata və oğlu barədə qərar verib.**

Trend-in məlumatına görə, hadisədə təqsirləndirilən Feyruz Əliyev və atası Mahmud Əliyev məhkəmə qarşısına çıxarılıb.

Göyçay rayon Məhkəməsinin qərarı ilə Feyruz Əliyev barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Atası barəsində isə ev dustaqlığı qərarı verilib.

Xatırladaq ki, hadisə fevralın 26-da səhər saat 08:30 radələrində Göyçay rayonunun Ulaşlı Şıxlı kəndi ərazisində baş verib.

Kənd sakinləri- Feyruz Əliyev, atası Mahmud Əliyev və anası Yegane Əliyeva həmkəndliləri olan 21 yaşlı qızı oğurlayaraq həyətlərindəki tövlədə saxlayıb. Ailə qızın əllərini və ağzını bağlayaraq ona işgəncə verib.

Faktla bağlı Göyçay rayon Polis şöbəsində istintaq bölməsində cinayət işi başlanıb, F. Əliyev və M. Əliyev şübhəli şəxs qismində saxlanılaraq istintaqa cəlb edilib-lər.

## Azərbaycana bu il 1,2 mln. doza "CoronaVac" vaksini gətirilb



**Bu ilin yanvar ayında təsdiq olunmuş müqaviləyə əsasən Azərbaycana 1 200 000 doza "CoronaVac" vaksini gətirilib.**

Müəyyənləşdirilən tələbata uyğun olaraq 2022-ci ildə təsdiq olunmuş müqaviləyə əsasən, Azərbaycana daha 2 080 000 doza vaksinin gətirilməsi nəzərdə tutulub.

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib.

Qeyd edilib ki, onlardan 2 000 000 doza "CoronaVac", 80 000 doza isə "Sputnik V" vaksinidir.

Eyni zamanda qeyd edilib ki, Azərbaycana gətirilən Biontech/Pfizer vaksininin istifadə tarixi 31 iyula qədərdir:

"Təsdiq olunmuş müqaviləyə əsasən 2021-ci ilin dekabr ayının sonunda gətirilmiş 1 344 330 doza Biontech/Pfizer vaksininin istifadə tarixi 31 iyul 2022-ci ilə qədərdir. Agentlik ölkənin müvafiq qurumları tərəfindən müəyyənləşdirilən tələbata uyğun vaksin alışını həyata keçirir".

## "Yaşatdığınızı yaşayın"

İradə İbrahimova Ukraynaya hücumu ilə bağlı paylaşım edib



**Müğənni İradə İbrahimova Rusiyanın Ukraynaya hücumu ilə bağlı paylaşım edib.**

İfaçı instaqramda hekayə bölümündə müharibədən görüntülər yayımlayıb. İbrahimova "Nə yazacağımı bilmədim. Yaşatdığınızı yaşayın" sözlərini əlavə edib.

*Qeyd edək ki, İ.İbrahimova türkiyəli iş adamı ilə ailəlidir və İstanbulda yaşayır. Cütlüyün iki övladı var.*

## Manaf Ağayev bu gün azadlığa çıxır



**Manaf Ağayevin azadlığa çıxacağı tarix məlum olub.**

Lent.az xəbər verir ki, M.Ağayevin həbs müddəti martın 4-də bitir.

Müğənni bu gün azadlığa buraxılacaq.

*Qeyd edək ki, Manaf Ağayev fevralın 18-də məhkəmənin qərarı ilə 15 sutkalıq inzibati qaydada həbs edilib. Buna səbəb isə müğənninin işğaldan azad edilən Füzuli şəhərinə qanunsuz səfər etməsi olub.*

## Gülay Zeynallı: "Xəyanəti bağışlamaq olar"



**"Xəyanəti ümumi baxışdan bağışlamaq, insana hər bir şansı vermək olar. Allah bağışlayandırsa, biz mütləq şəkildə bunu bacarmalıyıq. Elə şeylər var ki, keçmək lazımdır".**

Bu sözləri müğənni Gülay Zeynallı MTV-yə açıqlamasında deyib. Sənətçi yalanı və xəyanəti bağışlamağın mümkün olduğunu bildirib:

"Hərə bir baxışla baxır, fərqli düşünür. İnsandır, sənə yalan deyər, o anda nəsə düşünər, amma sonradan ağlını başına toplaya bilər. Ona görə də, yalanı, xəyanəti bağışlamaq olar".


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 www.sherg.az e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tiraj: 2550 Sifariş: 551**



## Əlişir Usmanovun 600 milyonluq yaxtasına "əl qoyuldu"

**Almaniya hökuməti özbək əsilli rusiyalı milyarder Əlişir Usmanova məxsus olan 156 metrlik lüks yaxtanı müsadirə edib.**

Axşam.az rus mediasına istinadən xəbər verir ki, buna səbəb Ukraynaya hücum edən Rusiyanın sanksiyalara salınmasıdır.

"Forbes"in yaydığı məlumata görə, yaxta Hamburq şəhərində təmirdə olub. "Dilbar" adlı yaxtanın dəyəri 600 milyon dollardır. Dünyanın ən böyük yaxtası hesab edilən gəminin 16 ton ağırlığı var. İki vertolyot üçün yeri, böyük hovuzu olan su nəqliyyat vasitəsi həmçinin sauna və idman zalından ibarətdir. Yaxta 2015-ci ildə hazırlanıb. Onun istehsalına 5 il vaxt gedib. Əlişir Usmanov bu haqda heç bir açıqlama verməyib. Onun mal-dövləti hazırda 18,4 milyard dollar dəyərindədir.

## Pişiklərə də sanksiya...

### Rusiyadan gələn heyvanlar beynəlxalq sərgilərə buraxılmayacaq

**Beynəlxalq Pişiklər Federasiyası (FIFE) Rusiyadan gə-**



**lən pişiklərin beynəlxalq sərgilərdə iştirakına qadağa qoyub.**

"Şərq" "Kommersantc"a isinadən xəbər verir ki, qərar Ukraynada hərbi əməliyyatların başlaması ilə əlaqədar qəbul edilib.

FIFE saytında bildirildiyi kimi, Rusiyada yetişdirilən heç bir pişik Rusiya Federasiyasından kənara ixrac edilə və ya heç bir FIFE damazlıq kitabında qeydiyyata alına bilməz.

**Çimnaz**







# Film kimi...

## Atəş altında iki can dünyaya gəldi

**Rusiya-Ukrayna müharibəsi ağlagəlməz bir hadisəyə də səbəb olub. "Şərq" "Hürriyetcom"a istinadən dünyaya gəldikləri gündən od-alovun əhatəsində qalan yeni doğulmuş 2 körpənin başına gələnləri təqdim edir.**

Körpələr amerikalı cütlüyün övladlarıdır. Amma onları surroqat ana dünyaya gətirib. Amerikalı cütlük - 46 yaşlı Alexander Spektör və 48 yaşlı İrma Nunnez yeni doğulmuş körpələrinə qovuşacaqları günü gözləyir. Ata-ana ABŞ-da, körpələr isə Kiyevdədir. Cütlük övlad sahibi olmaq üçün daşıyıcı ana axtarışına çıxıblar və onu Kiyevdə tapıblar. Hardan biləydilər ki, müharibə başlayacaq və körpələri od-alovun içində qalacaq? Körpələrin dünyaya gəlməsinə və ailəyə təslim edilməsinə 7 həftə vardı. Rusiya Ukraynaya hücuma keçən günün ertəsi Alexanderin telefonuna zəng gəlib və ona "əkiz oğlunuz oldu", müjdəsi verilib. Məlum olub ki, əkizlər vaxtından əvvəl dünyaya gəlib. Erkən doğuma rəğmən körpələr sağlamdır. Problem yalnız budur ki, körpələr atəş altında qalan şəhərin xəstəxanasındadırlar. Spektör "bu, dəliliyə oxşayır. Bu, həyatımızın ən uzun həftəsi oldu", deyib. Hazırda amerikalı valideynlər körpələrini atəş altından necə çıxaracaqlarını düşünür, bir yol tapmağa çalışırlar. Körpələrin xəstəxanadan çıxarılması üçün xüsusi tibbi yardım maşını lazımdır. Ancaq hazırkı şəraitdə buna nail olunması mümkünsüz görünür. Körpələr vaxtından əvvəl doğulduqları üçün bir müddət xüsusi nəzarət altında və apa-

### *Amerikalı cütlük yeni doğulmuş körpələrinə qovuşa bilmir*

ratlara bağlı qalmalıdırlar. Bu da onların xəstəxanadan və ölkədən çıxarılmasını çətinləşdirir. Valideynlərsə körpələrini qısa zamanda, heç olmasa ən yaxın və təhlükəsiz ölkəyə - Polşaya təxliyə edilmələrini istəyirlər. Valideynlər hətta ABŞ Xarici



İşlər Nazirliyinə müraciət edib, senatorlarla da danışıblar. Lakin hələ də çarəsiz şəkildə gözləməkdən başqa əllərindən bir şey gəlmir. Spektör heç nəyə baxmayaraq yenə də özünü xoşbəxt hiss etdiyini deyib: İki can dünyaya gəldi. Dünyaya gəlişləri də çox çətin oldu, valideynlərinə qovuşmaları da çətin olacaq. Bütün bu dağıntılar içində dünyaya gəlmələri yenə də bizə inanılmaz dərəcədə ümid verir".

**Məlahət**

## 22 illik həyat yoldaşından boşandı



**"Mandıra Filozofu", "Çocuklar duymasın" filmləri ilə tanınan türkiyəli aktyor Müfit Can Saçıntı şəxsi həyatı ilə gündəmə gəlib.**

**Axşam.az xəbər verir ki, aktyor 22 ildir ailəli olduğu həyat yoldaşı Çiğdem Saçıntıdan boşanıb. Mövzu ilə bağlı açıqlama verən Müfit qarşılıqlı razılaşma ilə ayrıldıqlarını bildirib. Məlum olub ki, cütlük bu qərara hələ 5 il əvvəl gəlsələr də yalnız indi gerçəkləşdirə biliblər. Buna səbəb isə övladları Durunun böyüməsini gözləmək olub.**

**Qeyd edək ki, ikili 2000-ci ildə evlənib. 2005-ci ildə isə bir qızları olub.**

## Kadırovdan anormal açıqlama

### "Nə üçün Zelenski Xarkovda gözəl qızları məhv etməyə icazə verir?"



**Çeçenistanın rəhbəri Ramzan Kadırov bildirib ki, ukraynalılar onu sevir, o da ukraynalıları.**

**Demokrat.az xəbər verir ki, Kadırov Ukrayna xalqının düşmənlərini sevmədiyini bildirib.**

**Çeçenistan rəhbəri qeyd edib ki, o, rusları və ukraynalıları həmişə bir xalq hesab edib. "Mən heç cür başa düşə bilmirəm ki, onlar slavyan xalqını necə bu cür parçalaya biliblər... Ruslar, ukraynalılar, belaruslar. Mən həmişə onların bir xalq olduğunu düşünürdüm... Nə üçün Zelenski belə gözəl dövləti, belə gözəl yerləri, belə gözəl qızları orada məhv etməyə icazə verir? Xüsusilə də Xarkovda. Heyifdir", deyə o bildirib.**

## Bu brendlər satışı dayandırdı

### Artıq Rusiyada brendin rəsmi saytından sifariş vermək mümkün deyil




**Ötən gündən etibarən bir çox lüks pərakəndə satış platformaları Rusiya ilə əməkdaşlığı dayandırıb.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, növbəti sanksiya "ASOS" onlayn satış platformasından gəlib. Hazırda Rusiyada olan vətəndaşlar platformadan hər hansı əşya sifariş etmək imkanına sahib deyil.**

**Ukraynadakı mövcud vəziyyətə dəstək olaraq Rusiya ilə əməkdaşlığı dayandıran digər bir şirkət isə "Nike" brendidir. Artıq Rusiyada brendin rəsmi saytından sifariş vermək mümkün deyil.**

**Həmçinin "Farfetch", "Burberry", "Mytheresa", "Matchesfashion", "Golden Goose" də Rusiyadan onlayn sifarişləri və çatdırılmaları ləğv edib. Bu siyahıda "Net-a-Porter", "Yoox", "The Outnet", "IHerb" brendlərinin adı da var.**

***Qeyd edək ki, daha əvvəl yayımlanan açıqlamalarda "Balenciaga", "Apple" və "H&M Group" Ukraynaya dəstək olduqlarını bildirib.***



# Dünyanı heyran etdilər

## Ukraynalı qadınlar əsir rus əsgərlərinə şəfqət göstərib

**Ukraynalı qadınların təslim olan rus əsgərlərini isti çay, qida ilə doydurmasını əks etdirən videolar dünyanı heyran qoyub. Tvitter üzərindən paylaşılan görüntülər sosial şəbəkələrdə gündəmə çevirlib.**

Rusiya ordusundakı gənc və təcrübəsiz, hərbi təlim keçmədən qaynar nöqtələrə göndərilmiş əsgərlər Ukrayna vətəndaşları tərəfindən asan bir şəkildə yaxalanır. Lakin onlarla xoş davranılır. Ukraynaya nə üçün, hansı səbəbdən gəldiklərini anlamaqda çətinlik çəkən rus əsgərlərə Ukrayna xalqı şəfqətlə yanaşır. Videolarda görünür ki, ukraynalı qadınlar bir rus əsgərini əhatəyə alaraq onu təsəlli edirlər. Qadınlardan biri ona çay, şirniyyat verir. Başqa bir qadın əsgərin kürəyini sığallayaraq "hər şey yolundadır", deyir. Əsgərə anasına zəng etmək üçün telefon verilir və o, anasını görəndə göz yaşlarını saxlaya bilmir. Qadınlardan biri əsgərin anasıyla danışır və "Allah səni qorusun, Nataşa. Yenə sənə zəng edəcəyik. Oğlun həyatdadır, salamatdır", deyir. Bu görüntülər sosial şəbəkədə "Rus əsgərləri. Təslim olun. Ukrayna xalqı sizi doyuracaq", sözləri ilə paylaşılıb. Bu cür görüntülər Ukraynaya insanların rəğbətini daha da artırır. Ukrayna Müdafiə Nazirliyi isə rusiyalı analara müraciətində "Kiyevə gəlib oğullarınızı təslim ala bilərsiniz. Biz ukraynalılar Putindən fərqli olaraq analar və əsir uşaqlarla savaşmırıq. Sizi Kiyevdə gözləyirik", çağırışı edib.

**Məlahət**

## "Şayiələrə inanmayın"

### Sobçak mühacirət edəcəyi xəbərlərinə reaksiya verib



**Məşhur aparıcı Ksenya Sobçakın Rusiyanın Ukraynaya hücumu ilə bağlı dedikləri başına bəla olub.**

Axşam.az xəbər verir ki, aparıcının ölkədən mühacirət edəcəyi haqda məlumat yayılıb. Hətta Ksenya bu gün İstanbula yola düşüb.

Aparıcı həqiqətən də Türkiyəyə getdiyini təsdiqləyib:

"Hazırda övladımın tətilidir. Ona görə də çoxdan planlaşdırdığımız tətilə gedirik. İzləyicilərimə deyirəm ki, şayiələrə inanmasınlar. Rusam və Rusiya vətəndaşıyam, heç bir yerə getmirəm, başqa bir vətəndaşlığım yoxdur. Ərim Moskvadadır, istəsəniz onun məkanına gedə bilərsiniz. Biz heç bir halda yaşananlara təsir edə bilmərik. Biz ancaq işləməliyik".

Qeyd edək ki, Sobçak müharibə haqda "Səhər 6-da məni yuxudan oyadıblar ki, Sobçak, müharibə başladı. düzdür, bizim torpaqlarımızda deyil. Hamımız bu məsələyə bağlanmışıq. Çıxış yolu yoxdur. Biz rusuk və bu gün yaşananın zülmünü illərlə çəkəcəyik. İndi ən pis ssenarilərə inanacam. Hər zaman optimist olmuşam. İndi Rusiyada qalanlar optimistlər, buranı tərk edənlər isə pessimistlərdir" sözlərini yazıb. Bu fikirlərindən sonra o, müharibəyə qarşı çıxmadığı üçün tənqid edilib.

## "Vicdanınız sızıldayacaq"

### Ukrayna və Rusiya futbolçuları arasında "söz atışması" olub



**Ukraynalı futbolçu Vitali Mikolenkonun Rusiya millisinin üzvlərini sərt tənqid etməsinə cavab gecikməyib. Bu barədə "Şərq" "CNN Türk"ə istinadən xəbər verir.**

"Everton"un müdafiəçisi Mikolenko bildirib ki, rusiyalı oyunçular işğala çox sakit yanaşırlar. O, instaqramda Rusiya millisinin hazırkı kapitanı, Sankt-Peterburqun "Zenit" komandasının hücumçusu Artyom Dzyubanı təhqiredici paylaşımda etiketləyib: "Ömrünüzün sonuna qədər və ən əsası isə övladlarınızın həyatı boyu vicdaları sızıldayacaq. Mən buna şadam".

**Dzyuba 22 yaşlı futbolçunu "Everton"da ölkəsindən uzaqda dəbdəbəli həyat tərzi keçirdiyini nəzərə alaraq, onu ikiüzlülükdə ittiham edib: "İngilis malikanələrində oturub xoşagəlməz sözlər söyləyən bəzi həmkarlarımıza:**

Bu bizi incidə bilməz, biz hər şeyi başa düşürük! Mən rus olduğum üçün fəxr edirəm. Bu günə qədər Ukrayna hadisələri haqqında danışmaq istəmirdim. Müharibə dəhşətli şeydir. Bunun əleyhinəyəm. Mən insan nifrətinə də qarşıyam. İkili standartları görmək heç xoş deyil.

Niyə hamı deyir ki, idman siyasətdən kənarda qalmalıdır, amma məsələ Rusiyaya gələndə bu prinsip tamamilə unudulur? Təhqir və təhdid yazan minlərlə insan sıraya girsin!".

**Xanlar Əlibəy**

## Bakıda 500 manata 1 kq alça satılır

### Bazarda 70-80 manata satılan üzüm sortları da var



**Mövsümlə əlaqədar qiyməti bahalaşsa da, hər kəs bazara üz tutub meyvə alır.**

Çünki, orqanizm üçün ən faydalı nemətlərdəndir meyvə-tərəvəzlər. Ancaq hazırda satışda elə meyvələrdə var ki, qiymətinə yaxın düşmək mümkün deyil. Məsələn alça. Kiloqramı nə az nə çox düz 500 manata satılır bu meyvənin. Hansı ki, mövsüm vaxtı alçanı 2-3 manata da ala bilirik. Qiymətləri od-tutub yanan təkcə alça deyil. Xəzər tv-nin məlumatına görə, Bazarda 70-80 manata satılan üzüm sortları da var.

Satıcılar deyir ki, bu cür meyvələr əsasən xaricdən idxal olunur. Ancaq istixana şəraitində yetişdirilən yerli meyvələrin də qiyməti ucuz deyil.

İstixana təsərrüfatı ilə məşğul olan Mürvət Həsənli isə bildirir ki, bu məhsullar mövsümü qabaqladığı üçün onları daha baha satmaq mümkündür. Təsərrüfatçının sözlərinə görə, istixanada yetişən meyvələrin baha olması həm də belə bağların saxlanma xərcləri ilə bağlıdır.

*Mürvət Həsənli bildirir ki, istixana şəraitinə baxmayaraq, meyvələrin yetişdiirlməsində heç bir gübrədən istifadə olunmur. Bu da həmin meyvələrin daha çox saxlana bilməsinə şərait yaradır.*